**D İ Q Q Ə T !**

## SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

*Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.*

***QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.*




“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 162 (6126) 17 sentyabr 2020-ci il. Qiymәti 40 qәpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# “Azərbaycan etnik-dini dözümsüzlüyün, ksenofobiyanın və antisemitizmin mövcud olmadığı nadir məkanlardan biridir”



Bax 2

## *Prezident İlham Əliyev yəhudi xalqının yeni il bayramı - Roş-Ha-Şana münasibətilə Azərbaycanın yəhudi icmasını təbrik edib*




### Ölkədaxili turlar yenidən bərpa olundu



### Türkiyəyə şəxsiyyət vəsiqəsi ilə getmək olacaq

### “Müxalifətin radikal qanadı düşdüyü siyasi koma vəziyyətindən Tofiq Yaqublu “faktoru” vasitəsilə çıxmağa çalışır”

Bax 4



*“Müxalifətin radikal qanadı düşdüyü siyasi koma vəziyyətindən Tofiq Yaqublu “faktoru” vasitəsilə çıxmağa çalışır. Siyasətin əxlaqla toqquşduğu çirkin hadisənin şahidləriyik. Törətdiyi cinayət tərkibli əməllərinə görə bütün prosedurlara uyğun olaraq məhkəmə hökmü ilə cəza...*

### Heydər Əliyev Fondunun ölkə təhsilinə növbəti töhfəsi



Bax 9

2020-2021-ci tədris ilində Heydər Əliyev Fondunun dəstəyi ilə respublikanın müxtəlif bölgələrində yeni inşa və əsaslı təmir olunan məktəb, eləcə də məktəbəqədər təhsil müəssisələri istifadəyə verilir. AZƏRTAC xəbər verir ki, Xaçmaz, Saatlı, Kürdəmir, Şamaxı, Lerik, Astara və Masallı rayonlarında yeni istifadəyə verilən məktəb və məktəbəqədər təhsil müəssisələri ilə tanışlıq olub.

### Korrupsiyaya qarşı mübarizə üsulu: yeni və təkmilləşmiş mərhələ



Azərbaycanda artıq bir neçə ildir ki, davamlı olaraq kadr və struktur dəyişiklikləri həyata keçirilir. Məhz bu islahatlar nəticəsində Azərbaycanda yeni çevik idarəçilik mexanizmi formalaşıb...

Bax 5



### “CÜMHURİYYET” nəşri: “PKK terrorçuları Qarabağa yerləşdirilir”

Livan ermənilərinin ardınca, işğal altındakı Dağlıq Qarabağa PKK terror təşkilatının “xüsusi təyinatlı gücləri” yerləşdirilib. SİA xəbər verir...

Bax 10

### Güclü təsirli maddələr gətirən şəxslər ifşa olunublar



Bax 5

### Yeni Xınalıq avtomobil yolunun tikinti işləri sonuncu mərhələdədir



### Fatih Terim: “Neftçi”yə yuxarıdan aşağı baxmaq olmaz



Bax 16

# "Azərbaycan etnik-dini dözümsüzlüyün, ksenofobiyanın və antisemitizmin mövcud olmadığı nadir məkanlardan biridir"

## *Prezident İlham Əliyev yəhudi xalqının yeni il bayramı - Roş-Ha-Şana münasibətilə Azərbaycanın yəhudi icmasını təbrik edib*

***Prezident İlham Əliyev yəhudi xalqının yeni il bayramı - Roş-Ha-Şana münasibətilə Azərbaycanın yəhudi icmasını təbrik edib.***



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı təbrikdə zəngin tarixi-mədəni irsə və çoxəsrlik tolerantlıq ənənələrinə malik Azərbaycanda tarix boyu yəhudilərin digər xalqların və dinlərin nümayəndələri ilə sülh, əmin-amanlıq, qarşılıqlı hörmət və etimad şəraitində yaşadıqlarını bildirib. Prezident vurğulayıb ki, Azərbaycan etnik-dini dözümsüzlüyün, ksenofobiyanın və antisemitizmin mövcud olmadığı nadir məkanlardan biridir.

Təbrikdə qeyd edilib ki, cəmiyyətdə demokratik, hüquqi prinsiplərə əsaslanan birgəyaşayışa, yüksək dözümlülük mühitinin, multikultural dəyərlərin təşviqinə xüsusi əhəmiyyət verən Azərbaycan dövləti bütün etnik azlıqların, o cümlədən yəhudi icmasının mədəni-mənəvi dəyərlərinin qorunub-saxlanılmasına, dil və mədəniyyətinin inkişafına böyük diqqət və qayğıyla yanaşır.

Təqdirəlayiq haldır ki, ölkəmizin ictimai-siyasi, sosial-mədəni həyatında fəal iştirak edən yəhudi əsilli həmvətənlərimiz, harada yaşamalarından asılı olmayaraq, Azərbaycana sevgi və sədaqətlərini daim nümayiş etdirir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə əhəmiyyətli töhfələr verirlər.

Dövlətimizin başçısı xeyirxahlığı, mənəvi dirçəlişi və yeni həyatı təcəssüm etdirən Roş-Ha-Şana münasibətilə Azərbaycanın yəhudi icmasına bir daha səmimi bayram təbriklərini çatdırıb.

# İtaliya mətbuatı Azərbaycanın işğal olunmuş ərazilərində aparılan qanunsuz məskunlaşdırma siyasətindən yazır


Giornale Diplomatico

İtaliyanın "Politicamente Corretto", "Giornale Diplomatico" və "Agenzia Nova" kimi kütləvi informasiya vasitələrində Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni məskunlaşdırma siyasəti aparan Ermənistanın son günlərdə xüsusilə Livandan ermənilərin bu torpaqlara köçürülməsini həyata keçirməsi haqqında yazılar dərc edilib.

AZƏRTAC xəbər verir ki, yazılarda Azərbaycanın İtaliyadakı səfirliyinin mətbuat açıqlaması əsasında aidiyyəti mövzuya dair Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin və Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin müvafiq açıqlamalarına istinadən fikirlər əksini tapıb.

Məqalələrdə Ermənistanın Livanda baş vermiş partlayışdan özünün mənfur məqsədləri üçün sui-istifadə etdiyi, Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qeyri-qanuni məskunlaşdırma siyasətinin əslində demoqrafik vəziyyəti dəyişdirmək məqsədi daşıdığı bildirilir. Qeyd olunur ki, həmin insanlardan silahlı muzdlular kimi də istifadə edilir. Bu qeyri-qanuni məskunlaşdırma siyasətinin heç bir əsasının olmadığı, Azərbaycanın onun nəticələrini tamamilə rədd etdiyi və Ermənistan tərəfindən aparılan bu prosesin müharibə cinayəti olduğu diqqətə çatdırılır. Habelə yazılarda bu qanunsuz fəaliyyətin işğalçı Ermənistan tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinin, o cümlədən 1949-cu il Cenevrə Konvensiyası və onun əlavə protokollarının, eləcə də Ermənistanın özünün üzərinə götürdüyü öhdəliklərinin kobudcasına pozulmasının bariz nümunəsi olduğu bildirilib.

# Kürşad Zorlu: "Bakının azad edilməsindən 102 il sonra Azərbaycan və Türkiyə arasında eyni mənəvi dəstəyin şahidiyik"



1918-ci il sentyabrın 15-də Bakının daşnak-bolşevik işğalından azad olunması Azərbaycan ilə Türkiyənin sarsılmaz tarixi və mədəni əlaqələrinin real nəticəsidir. Bu hadisədən 102 il sonra da biz eyni mənəvi birliyin şahidi oluruq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Bozok Universitetinin dekanı, professor Kürşad Zorlu bildirib.

Azərbaycan Prezidenti İlham Əliyevin Yunanıstanın yeni səfirini qəbul edərkən Türkiyəyə göstərdiyi açıq dəstəyin qardaş ölkədə böyük rəğbətlə qarşılandığını bildirən professor deyib: "Azərbaycan ilə Türkiyənin geosiyasi və birgə əməkdaşlıq imkanları birliyimizi, inkişafımızı istəməyən qüvvələri ciddi narahat edir. Mahiyyət etibarilə Türkiyə üçün Şərqi Aralıq dənizində yaradılan süni problemlərlə Dağlıq Qarabağ münaqişəsi eyni məqsədlərə xidmət edir. Türkiyənin Azərbaycanın Qarabağ uğrunda haqlı mübarizəsini, ölkəmizin isə Türkiyənin Şərqi Aralıq dənizində maraq və mənafelərini müdafiə etməsi bir-birinə sıx bağlıdır. Ermənistanın həyata keçirmək istədiyi təxribatlar Azərbaycana qarşı yeni bir münaqişə ocağı yaratmaqdır. Buna nail olmaqla Türkiyənin dəstəyini azaltmaq, Şərqi Aralıq dənizində qarşıdurma yaratmaqla ölkəmizə göstərilən həmrəyliyi zəiflətmək istəyirlər. Lakin Azərbaycan və Türkiyə çevik siyasi qərarlar, diplomatik gedişlərə bu mənfur ssenariləri pozur.

Nuru Paşanın komandanlığı ilə Qafqaz İslam Ordusu və azərbaycanlı qardaşlarımızın birlikdə Bakının işğaldan azad etməklərindən 102 il ötəndən sonra Azərbaycan və Türkiyə Ermənistanın Tovuz təxribatına qarşı yenidən birlikdə oldular. Azərbaycan Türkiyənin Şərqi Aralıq dənizindəki haqlı mübarizəsinə dəstək verir. Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan və Türkiyə birliyi əbədiyyətə qədər davam edəcək".

Azərbaycan və Türkiyənin liderliyi ilə həyata keçirilən enerji və nəqliyyat layihələrinin Avrasiya məkanı üçün böyük mahiyyət daşıdığını diqqətə çatdıran professor Kürşad Zorlu əminliklə ifadə edib ki, xalqlarımızın mənəvi sifarişi olan qardaşlıq, birlik, inkişaf strategiyası qarşısıalınmaz proses kimi davam edəcək.

# Türkiyə Milli Müdafiə nazirinin müavini: Biz daim azərbaycanlı qardaşlarımızın yanındayıq

***Azərbaycan və Türkiyə deyərkən əlavə sözə ehtiyac yoxdur. Bizim üçün Azərbaycan deyəndə o dəqiqə ağıllarda "Bir millət, iki dövlət" kəlamı, Bakıdakı türk əsgərlərinin məzarı canlanır. Biz daim azərbaycanlı qardaşlarımızın yanındayıq. Ehtiyac yaranarsa, o cümlədən Qarabağ probleminin həllində Türkiyə bütün imkanları - hərbi texnikası və ordusu ilə hər zaman qardaş Azərbaycanın yanındadır.***



Bu fikirləri AZƏRTAC-a müsahibəsində Türkiyə Milli Müdafiə nazirinin müavini Alpaslan Kavaklıoğlu ifadə edib. Azərbaycanla Türkiyənin bütün imkanları dəyərləndirdiklərini bildirən nazir müavini deyib: "Biz Azərbaycanla birik, bərabərik və hər zaman qardaş ölkənin yanındayıq. Türkiyə olaraq bunu hər zaman bütün dünyaya açıq şəkildə bəyan edirik".

# İnsanlarımızı pandemiyadan ancaq məsuliyyət, qarşılıqlı anlayış xilas edəcək

## *Prezident İlham Əliyev: "Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur"*

***Dövlət başçısı İlham Əliyev çıxışlarında dəfələrlə deyib: "Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur". Ölkə başçısının bu mövqeyi Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi, iqtisadi inkişafın nəticələrinin əhalinin rifah halının yüksəldilməsinə yönəldilən real sübutudur, bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Xüsusən, son aylar Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə koronavirus (COVID-19) pandemiyasına qarşı genişmiqyaslı tədbirlər görülür, məşğulluğa və sosial rifaha dəstək məqsədilə fəal siyasət aparılır. Məqsəd dövlətin öz vətəndaşının sağlamlığını hər şeydən üstün tutmaqdır.***




Xüsusilə son həftələr ölkədə karantin müddətinin yumuşaldılmasına baxmayaraq, insanlarımız karantin rejiminin qaydalarına əməl etməlidir. Çünki insanlarımızı pandemiyadan ancaq məsuliyyət, qarşılıqlı anlayış xilas edə biləcək. Pandemiya başlayandan indiyə qədər məhz düşünülmüş siyasət nəticəsində Azərbaycanda vəziyyəti nəzarət altında saxlamaq mümkün olub. Elə karantin müddətinin uzadılması da dövlətin öz vətəndaşlarına daha diqqətli olmasının realllığıdır. Buna isə "Biz birlikdə güclüyük!" devizi ilə düşünülmüş halda əməl etməliyik.

Çünki bu gün bütün çətin məqamlarda dövlət başçıs hər an öz xalqının yanında olduğunu göstərməkdədir. Təbii ki, cəmiyyət Prezidentin bu qayğısını görür, anlayır və başa düşür. Məhz buna görə son günlərdə dövlət başçısına gələn təşəkkür məktublarının sayı-hesabı yoxdur. Azərbaycan Prezidentin saytında oxuya biləcəyimiz məktublarda insanlar böyük səmimiyyətlə və ürəkdən gələn sözlərlə dövlətin həqiqətən xalqla birlikdə olduğunu deyir. "Biz birlikdə güclüyük" şüarının sadəcə bir söz olmadığını ifadə edirlər. Ölkə rəhbəri çıxışlarında da dəfələrlə vurğulayıb ki, neft gəlirlərimiz azalıb, ancaq insanların sağlamlığı, təhlükəsizliyi, rahatlığı və rifahı bizim üçün hər şeydən üstündür: "Bütün Azərbaycan vətəndaşlarına bir daha çağırış edib demək istəyirəm: Məsuliyyətli olun, nizam-intizamı, qaydaları pozmayın, özünüzü, uşaqlarınızı, yaxınlarınızı qoruyun ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək! Biz birlikdə güclüyük!"

### Artıq bütün dünya ölkəmizin nümunəsini öyrənməyə çalışır

Göründüyü kimi, diqqətdən qaçmamalıdır ki, Azərbaycan dünyanı vahiməyə salmış pandemiyaya qarşı savaşı demək olar ki, öz vəsaiti hesabına aparır. Azərbaycan yeni bir nümunə yaradır və artıq bütün dünya ölkəmizin nümunəsini öyrənməyə çalışır. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən tədbirlər, aparılan mübarizə Azərbaycanın bu sınaqdan da daha az itki ilə çıxacağına əminlik yaradır. Ümumiyyətlə, həmişə olduğu kimi, bu pandemiya dövründə Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Əslində, ölkə Prezidenti İlham Əliyev prezidentdik fəaliyyətinin son 17 ili ərzində bu siyasətini davam etdirib və hazırkı məqamda da həmin siyasət daha aşkar görünməkdədir. Yəni Prezident İlham Əliyev deyərkən, xalq yalnız dövlət başçısı deyil, həm də bir qayğıkeş şəxsiyyət, böyüklük rəmzi, ağsaqqala, ağbirçəyə sonsuz hörmət bəsləyən Vətən övladı görür. Və həmişə də bu qayğı görünməkdədir. Prezident xalqın təhlükəsizliyinin və sağlamlığının təmin edilməsi üçün qlobal pandemiyanın dünya ölkələrində yaratdığı fəsadları izləyir, düzgün təhlil edir, təhlükələrin qarşısını almaq üçün vaxtında və rasional qərarlar verir, nəzarətin gücləndirilməsi şəraitində yüksək çevikliyə malik operativ qərargahın fəaliyyətini təmin edir. Elə bu səbəbdəndir ki, dünya ölkələrində, xüsusilə də Avropada və ABŞ-da yaşanan ajiotaj, kilometrlərlə ərzaq növbələri, qida çatışmazlığı ucbatından mağazalara kütləvi hücumlar, silah alışı və s. panikadan doğan addımlar Azərbaycanda yaşanmadı, yaşanmır.

Bir sözlə, dövlət başçısının koronavirusla bağlı ardıcıl addımların atılmasında məqsəd Azərbaycan xalqının sağlamlığı olduğunu bildirib: "Bizim bu sahədə görülən işlərə ən gözəl qiyməti Azərbaycan xalqı verir. Bir daha demək istəyirəm ki, mən minlərlə elektron məktub alıram. Bu məktublarda görülən işlərə görə minnətdarlıq ifadə olunur. Ümumdünya Səhiyyə Təşkilatı bizim gördüyümüz işlərə yüksək qiymət verərək Azərbaycanı koronavirusla mübarizə sahəsində nümunəvi ölkə adlandırıbdır. Bütün bunlar deməyə əsas verir ki, biz bu bəlanı da dəf edəcəyik, bu mübarizədə qalib gələcəyik".

Budur, dövlətin, dövlət başçısının xalqına qaycısı, diqqəti. Bəli, bütün bunları xalqımız görür və öz Prezidentinin yanındadır və dövlətin həqiqətən xalqla birlikdə olduğunu deyir. Əslində hər zaman Prezident İlham Əliyevin bütün düşüncələri, qərarları və addımları vətəndaşın rifahına yönəlmişdi.

Ölkədə koronavirusa yoluxma sabitləşib, əvvəlki mənfi tendensiya yoxdur

Son günlər qeydə alınan müsbət dəyişikliklər atılan addımların düzgün olduğunu göstərir. Nəzərə alsaq ki, artıq yoluxma ilə sağalma arasında müsbət mənada fərq var, deməli, tətbiq olunan tədbirlərin özünü göstərməsi şübhəsizdir. Ötən iki həftə ərzində sərtləşdirilmiş karantin rejimi səmərəli nəticəsini verdiyindən bu dinamikanın saxlanılması əsas şərtdir. Sərt karantin rejiminin yenidən uzadılması da məhz pandemiyanın təsirinin daha da zəifləndilməsinə hesablanıb.

Müsbət tendensiyanin yaranmasının əsas səbəbi əhalinin böyük qisminin qaydalara riayət etməsidir. Polislərin gücləndirilmiş iş rejiminə keçməsi, qapalı və ictimai məkanlarda polis nəzarətinin gücləndirilməsi və vətəndaş məsuliyyəti pandemiyanın təsirlərinin azaldılmasına öz töhfəsini verir. Sevindirici haldır ki, əvvəlki dövrdən fərqli olaraq indi əhalinin böyük əksəriyyəti maskadan, dezinfeksiyaedici məhlullardan daha çox istifadə edir.

Amma təəssüf ki, hələ də maskadan düzgün istifadə etməyənlər var. Bəzən taxılan maskanı burundan aşağıda saxlayırlar. Bəli, hava istidir, nəfəs almaq çətindir, amma nəzərə almaq lazımdır ki, maska burundan aşağıda saxlanılırsa, onda onu taxmağın heç bir əhəmiyyəti qalmır. Maskanı çənəyə endirmək və ona tez-tez əl vurmaq da problem yaradan haldır. Çünki maskaya tez-tez əl vurub toxunanda çöl hissədə virus varsa, yayılır. Ona görə də özümüzün və ətrafdakıların sağlamlığı naminə maskadan düzgün istifadə etmək, sosial məsafə saxlamaq vacibdir. Hazırda dünyanı bürüyən koronavirusa qarşı bundan effektli qoruyucu üsul yoxdur. Odur ki, pandemiyaya qarşı effektiv mübarizə aparmalı, xalq olaraq birlikdə addımlamalıyıq. Bu dövrü səbirlə, təmkinlə keçirməli, qayda və qanunlara mütləq riayət etməli, maska taxıb, sosial məsafəni gözləməliyik. Nə qədər səbirli olub bu dövrü təmkinlə başa vursaq, karantin şəraitindən də bir o qədər tez çıxarıq. Çünki Azərbaycan kimi sabit, enerji daşıyıcıları və əmək qüvvəsi ucuz olan, habelə infrastrukturu inkişaf edən ölkənin yaranmış vəziyyətdən istifadə edərək dəyər zəncirlərində iştirak payını artırmaq imkanları var. Azərbaycan da həmin imkandan istifadə edib qlobal şokun təsirini azaltmaq və daha az itki verməklə bu dövrü geridə qoymağa çalışır.

Sonda Prezident İlham Əliyevin dediyi fikiri vurğulamaq istərdim: "Biz şüurlu şəkildə məhdudlaşdırıcı tədbirləri gördük və deyə bilərəm, dünyada ilk ölkələrdən idik ki, bütün lazımi məhdudlaşdırıcı tədbirləri gördük, məktəbləri, ali məktəbləri, ictimai iaşə obyektlərini, böyük ticarət mərkəzlərini bağladıq ki, kütləvi yoluxmanın qarşısı alınsın. Ona görə hesab edirəm ki, biz düzgün addım atmışıq. Çünki bir daha demək istəyirəm, - mən bunu demişəm, - mənim üçün insanların sağlamlığı əsas prioritetdir".

**RƏFİQƏ HÜSEYNOVA**

# "Müxalifətin radikal qanadı düşdüyü siyasi koma vəziyyətindən Tofiq Yaqublu "faktoru" vasitəsilə çıxmağa çalışır"

***"Müxalifətin radikal qanadı düşdüyü siyasi koma vəziyyətindən Tofiq Yaqublu "faktoru" vasitəsilə çıxmağa çalışır. Siyasətin əxlaqla toqquşduğu çirkin hadisənin şahidləriyik. Törətdiyi cinayət tərkibli əməllərinə görə bütün prosedurlara uyğun olaraq məhkəmə hökmü ilə cəza almış müxalifətçi Tofiq Yaqublunun həyatı indi radikalların faydalanmağa çalışdığı alətə çevrilib.***



Bu gün üçün aktual olan müxalifətçinin elan etdiyi aclıqla əlaqədar səhhətində yaranmış problemlərin aradan qaldırılmasıdır. Dövlət öz üzərinə düşən vəzifənin yerinə yetirilməsində seçim etmir. Tofiq Yaqublunun sağlamlığının qorunması üçün lazım olan bütün tədbirlər görülür və görüləcək. Lakin təəssüf ki, əks düşərgənin mövqeyi insanın sağlamlığı deyil, ondan siyasi divident qazanmaqdan ibarətdir.

Görünür, radikalları onların öz sıralarından olan birisinin həyatından daha çox, yaranmış vəziyyətdən faydalanmaq maraqlandırır". SİA-nın verdiyi məlumata görə, bu fikirlər Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini - İcra katibi Əli Əhmədovun özünün rəsmi facebook səhifəsində müxalifətin həbsdə olan Tofiq Yaqublunun səhhəti və ondan siyasi divident qazanmağa cəhdlərdən bəhs edən paylaşımında yer alıb.

Əli Əhmədov qeyd edib ki, insanın həyatını siyasətə qurban vermək siyasətin əxlaqi mahiyyətindən məhrum edilməsidir: "Tofiq Yaqublunun barəsində çıxarılan məhkəmə hökmündən narazı qalmasına, onu həll etməyin məlum hüquqi prosedurları mövcuddur. Sağlamlığı hesabına hüquqa qalib gəlmək taktikasını düzgün seçim saymaq çox çətindir. Xüsusilə də, əgər bundan kimlərsə siyasi reytinqini yüksəltməyə çalışırsa. İnsanın həyatı və sağlamlığı heç bir halda siyasi alver və ya mübarizə predmeti olmamalıdır. Azərbaycanı bu cür çirkin siyasətdən qorumalıyıq".

## Müdafiə naziri: "Təxribatların qarşısının dərhal və qətiyyətlə alınsın"



Sentyabrın 16-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində birlik, birləşmə, əlahiddə hərbi hissə komandirlərinin və xüsusi təyinatlı hərbi təhsil müəssisələri rəislərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinləri ilə görüşüb. SİA-nın verdiyi məlumata görə, əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müdafiə naziri cari ilin ötən dövründə döyüş hazırlığı və mənəvi-psixoloji təminat sahəsində fəaliyyətlərin təhlilini aparıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ordu quruculuğuna xüsusi diqqət göstərdiyini qeyd edən Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanının ordumuz qarşısında qoyduğu tapşırıqları görüş iştirakçılarına çatdırıb.

Cəbhədəki son vəziyyətə toxunan Müdafiə naziri şəxsi heyətin döyüş hazırlığını və ayıq-sayıqlığını yüksək səviyyədə saxlamağı, eləcə də Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdə törədə biləcəyi genişmiqyaslı təxribatların qarşısının dərhal və qətiyyətlə alınmasını əmr edib. Azərbaycan xalqının Orduya inamının güclü olduğunu xatırladan nazir torpaqlarımızın işğaldan azad edilməsi naminə müqəddəs vəzifənin yerinə yetirilməsinə əsgərdən generaladək hər bir hərbi qulluqçunun hazır olduğunu bildirib.

Orduda həyata keçirilən döyüş hazırlığı tədbirləri, bölmələrin təminat və təchizatı, eləcə də döyüş qabiliyyətinin artırılması məsələlərini diqqətə çatdıran Müdafiə naziri həmçinin tərbiyəvi işin planlı şəkildə aparılması, qoşunların döyüş tapşırıqlarını yerinə yetirməyə daim hazır olmaları üçün ideoloji iş və mənəvi-psixoloji təminatın daha da gücləndirilməsi ilə bağlı vəzifəli şəxslərə konkret tapşırıqlar verib.

## İƏT-in Baş katibi: Azərbaycanın İslam aləminin birgə tədbirlərinə böyük töhfə verir

***İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş katibi Yusif bin Əhməd Osaymin Azərbaycanın bu təşkilata verdiyi dəstəyə görə təşəkkürünü ifadə edib. O, həmçinin ölkəmizin İƏT-in fəaliyyətində mühüm rolunu vurğulayıb, İslam aləminin birgə tədbirlərinə böyük töhfə verdiyini qeyd edib.***



AZƏRTAC xəbər verir ki, İƏT-in Baş katibinin Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri və təşkilatdakı daimi nümayəndəsi Şahin Abdullayevlə keçirdiyi görüşdə əməkdaşlığın perspektivləri müzakirə edilib.

Tərəflər müxtəlif sahələrdə əlaqələrin daha da inkişafının zəruriliyini vurğulayıblar.

Səfir Ş.Abdullayev təşkilatın Azərbaycanın ərazi bütövlüyünü və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin həlli üzrə ölkəmizin ədalətli mövqeyini dəstəklədiyinə görə İƏT-in Baş katibinə təşəkkürünü bildirib.

## "ABAD HƏYƏT" layihəsi çərçivəsində abadlaşdırılmış yeni məhəllə




Son illərdə Prezident İ.Əliyevin tapşırığı ilə Bakı şəhərinin müxtəlif güşələrdə geniş abadlıq-quruculuq işləri aparılır, yeni yaşıllıq zolaqları salınır, məhəllədaxili asfalt yolları təzələnir. Azərbaycan Prezidentinin bu təşəbbüsünə tanınmış bəzi İctimai təşkilatlar da dəstək verərək yaşayış məhəllələrinin abadlaşdırılmasında fəal iştirak etməkdədirlər.

Bakı şəhərinin müxtəlif rayonlarında ayrı-ayrı məhəllələrin abadlaşdırılma-sında fəal iştirak edən ictimai təşkilatlardan biri də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "İDEA" Beynəlxalq İctimai Birlik təşkilatıdır. "İDEA" İctimai Birliyin "Abad Həyət" layihəsi artıq bir neçə illərdir şəhərimizin müxtəlif güşələrində abadlıq işlərini həyata keçirməkdədir. Bu günlərdə Leyla Əliyevanın rəhbərlik etdiyi "İDEA" Beynəlxalq İctimai Birlik təşkilatı Xətai rayonu, Vunq Tau küçəsi 12, 16, 18, 18a saylı binaların həyətində "Abad Həyət" layihəsi çərçivəsində geniş abadlaşdırma işləri həyata keçirilmişdir.




"Abad həyət" layihəsi əsasında yuxarıda göstərilən ünvanda çoxmənzilli binaların fasadları və giriş hissələri tam təmir olunmuş, hər birinin sahəsi 12 kv.m olan 3 ədəd söhbətkar (besetka), uşaqlar üçün 1 ədəd sürüşkən, 2 ədəd yelləncək, 25 ədəd oturacaq quraşdırılmış, 4 binanın giriş qəfəsləri (blokları) təmir edilmiş, binaların giriş qapıları tamam təzələnmiş, giriş bloklarının pəncərələri bütövlükdə dəyişdirilmiş, məhəllə tamamilə işıqlandırılmış, həyətin içindən keçən maşın yolları və bütün məhəllənin köhnə asfalt hissəsi təzələnmişdir. Bu yeniliyə ən çox sevinən məhəlləmizin uşaqlarıdır. Çünki indiyə qədər bu məhəllədə uşaqlar üçün heç bir əyləncə və idman qurğuları yox idi. İndi isə məhəllədə uşaqlar üçün çox maraqlı müxtəlif əyləncə və idman qurğuları yaradılmışdır. Bütün bu dəyişiklər məhəllə sakinlərini həm uşaqları, həm də yaşlı nəsli çox sevindirir və vətəndaş məmnunluğu yaradır.




Qeyd etmək lazımdır ki, yuxarıda göstərilən binaların sakinləri ümumi məsləhət məhəllədə yaradılmış abadlığı, gözəlliyi, yaşıllığı və uşaqların istirahəti üçün quraşdırılmış qurğuları qoruyub saxlamaq üçün ictimai əsaslarla "İctimai Nəzarət Şurası" yadılmışdır. Şüranın Nizamnaməsi hazırlanmış, müzakirə edilərək Şura üzvlərinin səsverməsi nəticəsində təsdiq edilmişdir.




"İctimai Nəzarət Şurası"nın əsas məqsədi məhəllədə yaradılmış abadlığın qorunub saxlanılması, məişət ekologiyasının yaxşılaşdırılmasından ibarətdir.

# Korrupsiyaya qarşı mübarizə üsulu: yeni və təkmilləşmiş mərhələ

## *Prezident İlham Əliyev: "Məmur həm dövlət, həm də vətəndaş qarşısında öz məsuliyyətini dərk etməlidir"*

***Azərbaycanda artıq bir neçə ildir ki, davamlı olaraq kadr və struktur dəyişiklikləri həyata keçirilir. Məhz bu islahatlar nəticəsində Azərbaycanda yeni çevik idarəçilik mexanizmi formalaşıb. Yeni kadrlar təyin olunarkən isə Prezident İlham Əliyev tərəfindən onların üzərinə çox ciddi tapşırıqlar qoyulur. Azərbaycanda reallaşdırılan islahatlar fonunda daha bir mühüm addım korrupsiya və rüşvətxorluğa qarşı aparılan mübarizə siyasətində öz əksini tapmaqdadır.***



Əbəs deyil ki, Prezident İlham Əliyev dəfələrlə öz çıxışlarında bu məqama toxunmaqla yanaşı, fikir və təşəbbüslərini irəli sürür, həmçinin bu fikirləri əsasında sərəncamlar imzalayır, mühüm qərarlarını verir. Ölkə başçısı öz çıxışlarında qeyd edib ki, "Hər bir məmur vətəndaşın xidmətçisi olmalıdır. Məmur həm dövlət, həm də vətəndaş qarşısında öz məsuliyyətini dərk etməlidir".

Bu, həm də onu etiva edir ki, istənilən dövlət məmuru hakimiyyətin apardığı uğurlu siyasətə qarşı çıxırsa, xalqı dövlətdən narazı salırsa, o mütləq müvafiq cəzasını almalıdır

Dövlətimizin başçısının irəli sürdüyü fikirlərini təhlil edərkən həm də belə bir nəticəyə gəlmək mümkündür ki, bəzi hallarda məmurlar vəzifə səlahiyyətlərindən sui-istifadə edirlər. Mövcud reallıq eyni zamanda ölkə rəhbərimiz tərəfindən korrupsiyaya qarşı mübarizənin çox ciddi, qətiyyətli və davamlı şəkildə aparıldığını isbat edir. Əbəs deyil ki, zaman-zaman müxtəlif rayon və şəhərlərdə Baş Prokurorluq yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsi, Dövlət Təhlükəsizlik Xidməti, Daxili İşlər Nazirliyi və s. qurumlar tərəfindən aparılan intensiv əməliyyatlar zamanı yüksək vəzifəli məmurların qaranlıq, cinayətkar əməlləri ifşa olunur, onlar qanun qarşısına çıxarılırlar. Bu, həm də onu sübut edir ki, istənilən məmur hakimiyyətin apardığı uğurlu siyasətə qarşı çıxırsa, o mütləq şəkildə cəzasını alır.

Onu da qeyd etmək yerinə düşərdi ki, korrupsiyaya qarşı mübarizə üsulunun yeni və daha təkmilləşmiş mərhələsinə keçidi üçün Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın tərkibi dəyişdirilib. Belə ki, "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanuna əsasən Azərbaycanda korrupsiyanın qarşısının alınması sahəsində ixtisaslaşmış orqan funksiyalarını Korrupsiyaya qarşı mübarizə üzrə Komissiya həyata keçirir. Komissiya 15 nəfər üzvdən ibarət olur. 5 üzvü Azərbaycan Prezidenti, 5 üzvü Milli Məclis, 5 üzvü isə Konstitusiya Məhkəməsi təyin edir.

Samir Nuriyev: "Dövlət orqanlarının fəaliyyətində şəffaflığın daha da artırılması üçün ictimai nəzarət mexanizmlərinin tətbiqi genişləndirilməli, ictimai şuraların fəaliyyətinin səmərəliliyi təmin edilməlidir"

Artıq komissiyanın ilk iclası da keçirilib və Prezident İlham Əliyevin dövlət idarəçiliyində həyata keçirdiyi genişmiqyaslı islahatlara, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarında aparılan dəyişikliklərə uyğun olaraq, 2020-ci ildə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın tərkibi yenilənib. O cümlədən, iclasda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev Komissiyanın sədri seçilib. O, çıxış edərək bildirib ki, Azərbaycanın korrupsiyaya qarşı mübarizə təcrübəsi sistemli, hərtərəfli və innovativ xarakter daşıyır. "Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın inkişaf strategiyasının mühüm tərkib hissəsini korrupsiyaya qarşı qətiyyətli mübarizə təşkil edir", deyə vurğulayan komissiya sədri qeyd edib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, bu sahədə yeni strateji baxışlar və vəzifələr müəyyən edilib, korrupsiyaya qarşı mübarizə keyfiyyətcə yeni müstəviyə keçib, uğurlu iqtisadi, hüquqi və sosial siyasət nəticəsində Azərbaycanda şəffaf ictimai münasibətlər sistemi formalaşıb. Dövlət idarəçiliyində səmərəliliyin təmin edilməsi, açıq hökumət prinsiplərinin tətbiqi, elektron xidmətlərin inkişafı dövlət siyasətinin əsas istiqamətlərindəndir. Dövlət orqanlarının fəaliyyətində şəffaflığın daha da artırılması üçün ictimai nəzarət mexanizmlərinin tətbiqi genişləndirilməli, ictimai şuraların fəaliyyətinin səmərəliliyi təmin edilməlidir".




Komissiya sədri vurğulayıb ki, korrupsiyaya qarşı mübarizə sahəsində müasir çağırışlara uyğun səmərəli mexanizmlərin tətbiqi üçün yeni təşəbbüslərin irəli sürülməsi zəruridir. Bu sahədə icra edilən tədbirlər korrupsiyaya şərait yaradan halların səbəblərinin müəyyən edilməsinə və bu kimi mənfi halların qarşısının alınması üçün səmərəli mexanizmlərin yaradılmasına yönəldilməlidir.

Beləliklə, artıq əminliklə vurğulamaq olar ki, Azərbaycanda korrupsiyaya qarşı mübarizənin səmərəli və keyfiyyətli olması üçün dövlət səviyyəsində dinamik, ardıcıl tədbirlər görülür və bu mübarizə göründüyü kimi, tam aşkarlıq şəraitində aparılır. Azərbaycan hakimiyyəti və dövləti bu sosial bəlaya qarşı qətiyyətlə mübarizə aparır, təkamül və islahatlar yolu ilə korrupsiyanın aradan qaldırılması yönündə mükəmməl iş və iradə ortaya qoyur.

***Rövşən RƏSULOV***

# "Ermənistan arxalandığı dövlətin diktəsi ilə addımlayır"

"Ermənistan Azərbaycana qarşı genişmiqyaslı hərbi əməliyyatlar keçirmək imkanında deyil, iqtisadi baxımdan bu dövlət Azərbaycandan qat-qat zəifdir, erməni xalqı da müharibə arzusunda deyil, çünki bilirlər ki, uduzan tərəf olacaqlar, onsuzda problemlər içində çabalayan erməni cəmiyyəti yenidən müharibə alovlanacağı təqdirdə lap batacaq. Lakin torpaqları da geri qaytara bilmirlər, özləri də illərdir bu münaqişənin girovuna çevriliblər, ona görə danışıqlardan min bir bəhanə ilə yayınırlar, neçə illərdir ki, beynəlxalq təzyiqdən qurtula bilmirlər, vasitəçilər münaqişəni ölü nöqtədən tərpətməyə çalışsalar da, erməni tərəfi hər vəchlə bu



prosesdən yayınmağa çalışır. Belə düşünürlər ki, danışıqlar prosesini uzatmaqla, işğal olunmuş torpaqlarda süni məskunlaşma aparmaqla vəziyyəti öz xeyirlərinə dəyişə biləcəklər". Bunu SİA-ya Azərbaycan-Amerika Gəncləri İctimai Birliyinin sədri Vüqar Əhmədov deyib.

"İşğalçı dövlətin müharibə ritorikasına gəldikdə isə mən belə düşünürəm ki, bu bölgədəki güclərin ermənistan vasitəsi ilə Azərbaycana təzyiqi sayıla bilər. Diqqət etsəz Azərbaycana qarşı hərbi hərəkətlilik işğal edilmiş torpaqlardan deyil, Tovuz istiqamətindən başladı. Məncə bununla bu güclər ölkəmizi yeni bir cəbhə açacağı ilə hədələyir, regional təhlükəsizliyi pozmağa çalışır. Biz daha çox Qarabağ istiqamətində fokuslaşdığımız zaman bizə gözlənilmədən zərbə Tovuz istiqamətindən gəldi. Təsadüfi deyil ki, biz Tovuz istiqamətinə hərbi qoşunlar deyil, sərhəd qoşunları yerləşdirmişdik. Azərbaycanın niyyəti qonşu ölkə ilə müharibə etmək yox, işğal olunmuş əzəli torpaqları işğaldan azad etməkdir. Lakin nə qədər ki, ermənistanda bu cinayətkar rejim mövcud olacaq, bölgədəki güclərin onu müxtəlif istiqamətlərdə üstümüzə qısqırtmaq ehtimalı da hər zaman olacaq. Ermənistanı qərbdə dəstəkləyən və himayə edən dövlətlər nəhayət gözlərini açıb bu həqiqəti görsələr çox yaxşı olardı. İşğalçı dövlət bu gün öz müqəddəratını həll etmək iqtidarında olmayan bir dövlətdir, çünki danışıqlar prosesində arxalandığı dövlətin diktəsi ilə addımlar atır"-deyə, V.Əhmədov fikrini tamamlayıb.

# "Böyük dövlətlər özlərini qanundan üstün tuturlar"



"İnsan hüquq və azadlıqları ilə bağlı məsələ artıq heç bir dövlətin daxili işi hesab olunmur. Buna görə də hansısa ölkədə insan hüquqları pozulanda, aşkar zorakılıq halları qeydə alınanda hüquq müdafiə təşkilatları dərhal reaksiya verirlər. Bu, məhz belə də olmalıdır. Çünki insan hüquqlarının qorunması çoxdan ümumbəşəri vəzifəyə çevrilib". Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə deyib.

JAM sədri qeyd edib ki, beynəlxalq təşkilatların insan hüquqlarının vəziyyətinə dair vaxtaşırı hesabatlar hazırlaması da bu amillə bağlıdır: "Düzdür, bu hesabatlar çox vaxt qərəzli olur, müəlliflər ikili standartlardan çıxış edirlər. Məsələn, Ermənistan insan hüquqlarının ən çox pozulduğu ölkələrdən biridir. Üstəlik, bu dövlət təcavüzkardır, qonşu ölkənin ərazisini zəbt edib. Ermənistanın işğalçılıq siyasəti nəticəsində 1 milyondan çox insan yurd-yuvasından didərgin düşüb, ağır köçkün həyatı yaşayır. Amma nədənsə bu fakt beynəlxalq təşkilatların hesabatında öz əksini tapmır. Bu cür faktlar həmin təşkilatların fəaliyyətinə kölgə salır".

Seymur Verdizadə təəssüflə bildirib ki, bəzən böyük dövlətlər özlərini qanundan üstün tuturlar: "Son 8 ayda ABŞ-da 164 afroamerikalı polis tərəfindən öldürülüb. Ümumiyyətlə, polis zorakılığına okeanın o tayında tez-tez rast gəlinir. Təəssüf ki, bu fakt beynəlxalq təşkilatların hesabatında öz əksini tapmır. Buna görə də hazırlanan hesabatların obyektivliyi çox vaxt şübhə doğurur".

# Ermənistanda koronavirusa yoluxma kəskin artıb



Ermənistanda koronavirusa yoluxanların sayı kəskin şəkildə, daha dəqiq desək, 257 nəfər artıb. SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, son sutka ərzində bu xəstəlikdən 3 nəfər ölüb.

Məlumatda həmçinin bildirilir ki, Ermənistanda 16 sentyabr tarixinə koronavirus virusuna yoluxanların sayı artaraq 46 376 nəfərə çatıb. Həmçinin qeyd olunur ki, Ümumi ölüm sayı 1206 nəfərə çatıb. Nəzərə çatdırılır ki, hal-hazırda sözügedən virusa yoluxan 3101 nəfər xəstəxanalarda yerləşdirilib.

***İnam Hacıyev***

# Ermənistan fəlakət qarşısında..

## Manqurtlaşan Ermənistan və diktator Paşinyan hakimiyyətinin...

***Ermənilər etiraf etməlidirlər və əslində, ağlı başında olan az bir qismi də dəhşət və kədər hissi ilə etiraf edir ki, dırnaqarası inqilab olan, reallıqda isə dövlət çevrilişi edilən doğma ölkələrində vəziyyət Avropanın ən axırıncı diktatoru tərəfindən idarə olunan Belarusiyadan heç də yaxşı deyil. Bu ölkələr arasında yeganə fərq var və bunu elə bir kəsim erməni də yaxşı bilir ki, əgər sözügedən ölkədə xalq diktator saydığından canını qurtarmaq üçün çabalayırsa, Ermənistanda diktator demokrat cildində ortaya atılıb və aldatdığı daxili auditoriya da həqiqətin gözünə düz baxmaq, etirazlar və küçə nümayişlərindən avantüristcəsinə istifadə edərək, hakimiyyət çevrilişi edərək baş nazir postunu qamarlayanın əsl diktator olduğuna hələ də inanmaq istəmir.***





Əslində isə, bu bir həqiqətdir ki, Ermənistanın baş naziri repressiyalarla, həbslərlə, təqiblərlə və digər üsullarla rəqib saydıqlarını, əmrlərinə müntəzir olmayanları, əvvəlki hakimiyyətlə işləyənləri, ümumiyyətlə, onunla eyni fikirdə belə olmayanları təhdidləri ilə boğaza yığıb. Bu isə onun diktator olduğuna inanmaq istəməyənlərin də istək və arzularını ürəklərində qoyur və inanmaq məcburiyyətində qalırlar.

Göründüyü kimi, manqurtlaşma, bir çox xalq və ölkələr üçün tanış bir fenomendir. Xüsusilə, "rus qardaş"ın təsiri altında olanlar üçün bu daha nəzərəçarpacaq dərəcədədir. Bunlara xüsusilə, ukraynalılar, belaruslar və ermənilər aiddir. Bunu ermənilər arzulamasa da, istəməsə də, etirafdan çəkinsələr də bu belədir. Ermənistanın halı, heç də oradakı vəziyyətdən yaxşı deyil. Bu gün Ermənistan və erməni xalqı həddindən artıq təzyiqlə qarşılaşır. Hətta cəmiyyət, Nikol Paşinyanla müqayisədə Serj Sarkisyan belə demokrat hesab edir, halbuki, onun özünü diktatorluqda ittiham edərək hakimiyyətdən uzaqlaşdırdılar. Və küçə "demokratının" yalan vədlərinə inanaraq başlarına "başağrısı" etdilər. Ən qəribəsi isə həyasızcasına hakimiyyətini əldə saxlamaq üçün düşünülməmiş təxribatlara əl atır. Ən böyük həyasızlığı isə, Ermənistan vətəndaşlarının, bütövlükdə Ermənistanın müflisləşməsi fonunda bu avantüristin ancaq özü və ailəsinin çox zənginləşməsinə çalışmasıdır. Utanmadan milyonlarla dəyəri olan saatını reklam etdirməsi, çörək almağa belə çətinlik çəkən ac vətəndaşlarını vecinə də almır.

### "DQR" generallarının qərarı: "Paşinyanı devirəcəyik!"

Bütün bu vəziyyətlə yanaşı, son günlər Ermənistanın mövcud hakimiyyəti ilə "DQR" arasındakı gərginlik durmadan artmaqdadır. Xüsusilə də, Robert Koçaryanın azadlığa buraxılmasından başlayan proses əslən Qarabağdan olan erməni hərbi-siyasi dairələrinin Nikol Paşinyan iqtidarına qarşı hücum mövqelərini gücəndirəmkdədir.

Ermənistanda nəşr edilən "Jamanak" qəzeti daxili mənbələrinə istinadən yazır ki, "DQR" generalları ölkənin baş naziri N.Paşinyanın vəzifəsindən güc yolu ilə devirilməsi məqsədini daşıyan suiqəsd planını uzun müzakirələrdən sonra qəbul ediblər.

"Novosti Armeniya" qəzeti isə yazır ki, sui-qəsd planının müzakirəsi və qəbulu "Oqanovski" kimi tanınan "DQR"-on "müdafiə nazirinin" keçmiş "müavini" Samvel Karapetyan tərəfindən təşkil edilib. Gizli görüşdə Ermənistan parlamentində deputat olmuş məşhur biznesmen Samvel Aleksanyan da iştirak edib. "Onlar Nikol Paşinyan hökumətini devirmək üçün hər şeyi etməyə söz veriblər", deyə adıçəkilən erməni nəşri qeyd edib.Beləliklə, mətbuatda gedən sui-qəsd və çevriliş planı Ermənistan ictimaiyyətində təlaşlanma, çalxalanma yaradıb.

### Artıq ox yaydan çıxıb və Nikol Paşinyan tərəfə istiqamət götürüb

"Aykakan jamanak" qəzeti yazır ki, başsız məmləkətdə nə müstəqil məhkəmə sistemi mövcuddur, nə də demokratiyanın inkişafı üçün baza var: "Ermənistan hökuməti borc içində boğulur. Ancaq bundan sonra ona borc verənlər də olmayacaq".

İqtisadçı-alim, millət vəkili Vüqar Bayramov "SƏS" qəzetinə verdiyi açıqlamasında bildirib ki, sadəcə rəsmi rəqəmlərə istinad göstərir ki, Azərbaycanın dövlət gəlirləri düşmən qonşumuzun qazancından 10 dəfə çoxdur. Dövlət büdcəmizin gəlirləri 25 milyard dollar çatdığı halda bu göstərici Ermənistanda cəmi 2,5 milyard dollardır: "Kiçik büdcəyə malik olan Ermənistan il ərzində hərbi məqsədlə 451 milyon dollar xərcləyir. İllik 2,1 milyard dollar müdafiə xərcinə malik olan Azərbaycan bu kateqoriya üzrə düşmən ölkəni 5 dəfəyə yaxın üstələyir. Digər tərəfdən, Ermənistan ümumi büdcə xərclərini 20 faizini hərbi sektora ayırmaqla Avropa Birliyinin bu xərclərinin büdcədəki payı ilə bağlı standartlarına məhəl qoymasa da Azərbaycan müdafiə xərclərinin dəyər ifadəsində çox olmasına baxmayaraq bu xərc maddəsinin ümumi büdcə xərclərində payı 8 faizə yaxındır. Bu baxımdan, hərbi xərclərinin dəyər ifadəsində Azərbaycana kəskin uduzan Ermənistan əslində hərbi xərclər ilə bağlı Avropa faiz kvotasına məhəl qoymasa da reallıq bundan ibarətdir ki, ölkəmizin müdafiə xərcləri təxminən düşmən qonşumuzun ümumi büdcəsi həcmindədir".

V.Bayramov, həmçinin ölkədə işsizlik səviyyəsinin 42-ə yaxın olduğunu da bildirib: "Ermənistan hakmiyyəti bu ölkə üçün heç də yaxşı vəziyyətə gətirib çıxarmayıb: xarici borc asılılığı artır, yoxulluq dərinləşir, insanlar iş tapa bilmir. Müqayisə üçün qeyd edək ki, ölkəmizdə işsizlik səviyyəsi cəmi 5,2 faizdir. Yoxsulluq əhalinin Ermənistanı tərk etməsinə və eləcə də təbii artımın səviyyəsinin neqativ olmasına gətirib çıxarıb. Ermənistan Dövlət Statistika Komitəsinin məlumatına əsasən, bu ölkədə təbii artım mənfi 6 faizdir. Deməli, əhalidə artım deyil, azalma və qocalma müşahidə edilir".

İqtisadçı alim onu da deyib ki, Ermənistanın xarici borcu artıq 6 milyard dollara çatıb və ümumi daxili məhsulun (ÜDM) 56 faizi deməkdir: "Bu ölkənin xarici borcunun 85,2 faizi dövlət borcudur ki, bu da düşmən dövlətinin xarici asılılığının daha da dərinləşməsinə gətirib çıxarır. Azərbaycanın xarici borc məbləğində diqqəti çəkən əsas müsbət məqam ondan ibarətdir ki, ölkə xarici borcun Ümumi Daxili Məhsuldakı payına görə, MDB-də ən yaxşı göstəriciyə malikdir. Belə ki, bu göstərici Azərbaycanda 8,2 faiz olmaqla regionda bu sahədə ən yaxşı mövqeyi malik olan Özbəkistan (11,2 faiz) və Rusiyanı (14.1 faiz) qabaqlayır. Ermənistan isə MDB-də ən pis göstəriciyə malik ölkələrdən hesab edilir".

### Paşinyanın demoqrafiya strategiyası ifşa olundu

N.Paşinyanın demoqrafiya strategiyası ilə bağlı çıxışını demoqraf Artak Markosyan ifşa edib. Ekspertin hesablamalarına görə, 2019-cu ilin ilk altı ayında ölkə əhalisi 3,7 min nəfər azalıb. A.Markosyan qeyd edib ki, bu göstərici ölkəni tərk edən altı min vətəndaş və doğum göstəricilərindəki 2,3 min nəfərlik müsbət saldo arasındakı fərqdən yaranıb. "Son vaxtlar ölkəni tərk edənlər Ermənistan pasportundan imtina edərək, yaşadıqları ölkənin pasportuna üstünlük verir", - deyən A.Markosyan əlavə edib ki, təkcə 2020-ci ilin altı ayları ərzində ölkəni 500 sakin tərk edib. Demoqraf doğum göstəricilərinin 2019-cu ilin analoji dövrü ilə müqayisədə 0,9%, yaxud 150 körpə daha az olduğunu dilə gətirib. Ermənistanda əhalinin sayının kəskin azalmasının digər səbəblərindən biri də ölkədə koronavirusa qarşı tədbirlərin görülməmsidir. Bütün bunlar Ermənistanın yürütdüyü işğalçılıq siyasətinin nəticələridir. Yəni işğalçılıq siyasəti, Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsində Yerevanın sərgilədiyi qeyri-konstruktiv mövqe Ermənistanı regional və beynəlxalq layihələrdən kənarda saxlayır. Bu isə Ermənistan iqtisadiyyatını daha da bərbad hala salır".

### Elxan Şahinoğlu: "N.Paşinyanın ideya və fikirləri məntiqsizdir"

"Atlas" araşdırmalar mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu bildirib ki, N.Paşinyanın ideya və fikirləri məntiqsizdir: "Paşinyan deyirdi ki, Ermənistan futbol üzrə dünya çempionatında qalib olmalıdır, hərbi büdcəsini 10 dəfə artırmalıdır. Həmçinin bildirir ki, ölkə əhalisinin sayı 2050-ci ilə qədər beş milyona qədər qalxacaq. Əhali sayının artımından qətiyyən söhbət gedə bilməz. Bunlar hamısı məntiqsiz və cəfəng fikirlərdir".

Ekspertin fikrincə, N.Paşinyanın indidən 2050-ci ilin hədəflərini açıqlaması o deməkdir ki, bu illər ərzində verdiyi vədləri yerinə yetirə bilməyəcək: "aşinyan erməni cəmiyyətinə mesaj verir ki, onlar ümidlərini 2050-ci ilə bağlamalıdırlar. O ilə qədər isə Paşinyanın hakimiyyətdə qalacağı sual altındadır"

E.Şahinoğlu əlavə edib ki, N.Paşinyandan Qarabağ münaqişəsinin həlli ilə bağlı nəsə gözləmək əbəsdir: "aşinyanın çıxışları Azərbaycanın manevr imkanlarını artırır. Biz Ermənistana təzyiqləri daha da artıra bilərik. Dünya gücləri də görür ki, Paşinyanın mənasız açıqlamaları vəziyyəti daha da gərginləşdirir. "Qarabağ Ermənistanındır" fikrini səsləndirmək o deməkdir ki, Ermənistan danışıqlardan çıxır". Təbii ki, belə bir vəziyyət insanlardan indiki hakimiyyətə inamsızlığı artırır. Bu səbəbdən də N.Paşinyan iqtisadiyyatda edə bilmədiyi populizmi münaqişə ilə bağlı etməyə cəhd göstərir.

Buradan sadə bir məntiqi nəticə alınır: Ermənistanın problemin həlli ilə bağlı təsəvvürləri ilə reallıq arasında dərin bir ziddiyyət mövcuddur. Belə ki, nə edirsən et, reallıq budur: təcavüzkar zəbt etdiyi torpaqlardan getməlidir, vəssalam!

Qabil Hüseynli: "Paşinyan yaxın anlarda erməni xalqının əli ilə də hakimiyyət kürsüsünə gətirildiyi kimi, o yolla da küçəyə atılacaq"

Politoloq Qabil Hüseynli bildirir ki, Paşinyan yaxın anlarda erməni xalqının əli ilə də hakimiyyət kürsüsünə gətirildiyi kimi, o yolla da küçəyə atılacaq: "Belə bir misal var, "meymunun boğazına su çatanda balasını ayağının altına alar". Görünən odur ki, aclıq və səfalət içində çırpınan erməni xalqı elə bir vəziyyətə çatdı ki, kütləvi şəkildə küçələrə axışaraq hakimiyyətə qarşı aksiyaların keçirilməsi də bunu bir daha sübut edir. Paşinyan Qarabağ separatçılarından və ölkəsindəki Qarabağ klanından qorxduğu üçün hər dəfə belə edir. Separatçılar Paşinyana etibar etmirlər. Ona görə də atəşkəsi zaman-zaman pozurlar. Proses elə il ərzində belə də davam edəcək".

Bir sözlə acınacaqlı siyasi situasiya ilə üzləşən N.Paşinyan necə deyərlər Ermənistanı iflasdan iflasa sürükləməkdədir. Nə qədər ki, Ermənistan Azərbayanın işğal altındakı torpaqlarını azad etməyəcək, bir o qədər ağır iqtisadi, siyasi məhrumiyyətlərə, məşəqqətlərə düçar olacaq.

**A.SƏMƏDOVA**

# AKTUAL TƏKLİF: "Kəndə qayıdış" proqramı elan edilsin...

## *Post-pandemiya dövründə ölkəmizin sosil-iqtisadi inkişafı üçün başlıca istqamətlər*

Sentyabrın 15-dək dövlət fermerlərə yazlıq əkinlərə görə 30 milyon manat subsidiya ödəyib. Aqrar Kredit və İnkişaf Agentliyinin məlumatına görə, yazlıq əkin bəyanı etmiş fermerlərin 99%-i (50146 nəfər) subsidiya alıb. SİA-nın məlumatına görə, bu il süni mayalanma ilə cins buzov əldə etdiyinə görə 27 910 fermerə 4 525 500 manat subsidiya ödənilib. 19 minə yaxın arıçıya dövlət 4 milyon manatdan artıq subsidiya ödəyib və 700 000 manatadək vəsaitin ödənilməsi üçün də monitorinqlər aparılır.

### Pandemiya dövrundə aqrar sektorun əhmiyyəti

Dövlətin tənzimləyci, yönəldici və stimullaşdırıcı funksiyasının detallarında aqrar siyasətin mahiyyəti gizlənir. Belə ki, müvafiq statistika bu sahədə deövlət siyasətini aydın göstərir. Aqrar sektorun inkişafı üçün dövlət dəstəyi getdikcə həm optimallaşır, həm də effektivliyi artır. Məhz bu səbəbdən, kənddə iş imkanları və məhsul istehsalı həcmi getdikcə artır. Bu da öz növbəsində ÜDM-in artması ilə əlaqədar olaraq idxaldan asılılığın azalması, qeyri-neft ixracının artması, büdcəyə ödənişlərin çoxalması kimi iqtisadi vəziyyətin, məşğulluğun azalması, qiymətlərin aşağı düşməsi kimi sosial vəziyyətin yaxşılaşmasına gətirib çıxarır.

Məlum olduğu kimi, koronavirus pandemiyası ilə bağlı yaranmış vəziyyət böyük şəhərlərdə vəziyyəti ağırlaşdırdı. İqtisadi durğunluq, işsizlik problemləri bütün ölkələrdə özünü biruzə verdi. Lakin bu, əlbəttə dediyimiz kimi yalnız şəhərlərin problemi kimi qaldı.

Kəndlərdə işlə, əmək fəaliyyəti ilə bağlı vəziyyət pisləşmədi, əksinə daha da yaxşılaşdı. Belə ki, şəhərlərdə bir çox müəssisələrin,



idarələrin, ticarət obyektlərinin, hətta nəqliyyatın hərəkətində karantin rejiminə uyğun olaraq dayanmalar oldusa da, bu hal kəndlərdə, təsərrüfatlarda müşahidə olunmadı. Əksinə, ərzağa tələbat və idxalda məhdudlaşma yerli aqrar təsərrüftatların məhsullarına tələbatı artırdı. Bununla bağlı olaraq, kəndlərdə işə tələbat və təsərrüfatların gəlirləri də artmağa başladı. Çünki istənilən böhran dövründə ərzağa və sair gündəlik tələbat mallarına ehtiyac azalmır.

Aqrar siyasət demoqrafik balanslaşdırıcı rolunda

Ölkəmizdə əhalinin balanssız yerləşməsi ötən əsrin 90-cı illərinin əvvələində meydana çıxdı- regionlarda zavod və fabriklər bağlandıqdan, təsərrüfatlar işini dayandırdıqdan, işsizlik vüsət aldıqdan sonra əhalinin əksər hissəsi iş tapmaq üçün paytaxta axın etdi. Hazırda Bakıda, ümumiyyətlə, Abşeron yarımadasında ölkə əhalisinin yarısı - təxminən 5 milyon nəfərə yaxın insan cəmləşib.

Bu gün paytaxtda cəmləşən kənd əhalisinin böyük əksəriyyətinin kəndlərdə evi, torpağı və s. mülkiyyəti var. Bunlar bir növ daxili köçkünlərdir və öz yurdlarına qayıda bilərlər. Sadəcə onlara öz doğma yerlərində iş qurmaq üçün şərait yaradılmalı, dövlət dəstəyi göücləndirilməlidir. Bundan sonra Bakıya qeydiyyat və burada müvəqqəti yaşama şərtləri çətinləşdirilməlidir.

Əlbəttə, son dövrlərdə əhalinin balanslı yerləşməsi, tarazlı və davamlı sosial-iqtisadi inkişafı üçün dövlət tərəfindən bir çox proqramlar həyata keçirilib. Xüsusən də, Regionların inkişafına Dövlət Dəstəyi proqramları bu istiqamətdə ciddi uğurların əldə olunmasına gətirib çıxarıb. Belə ki, qlobal neft və maliyyə böhranları zamanı ölkəmizin əsas gəlir mənbəyi olan neft sektorundan gəlirlərin azalmasını qeyri-neft sektorundan əldə edilən gəlirlərin artması kompensasiya edə bildi.

Bu istiqamətdə ən effektiv proqramlardan biri də Özünüməşğulluq proqramıdır. Əhalinin işsiz hissəsi özünə kiçik biznes, istehsal və xidmət sahəsində fərdi iş qurmaq üçün bu proqrama müraciət edir və həmin iş üçün zəruri olan bütün avadanlıqlar, aparatlar və sə ləvazimatlar, həmçinin kəndlərdə, toxum, meyvə tingləri, malqara və sairlə təmənnasız təmin olunur. Bunun sayəsində, on minlərlə işsiz vətəndaş özünə iş yeri qurub. Nəticədə, həm ölkədə istehsal artır, həm xidmət sahələrində yeni iş sahələri yaranır, on minlərlə insan işlə təmin olunur, son nəticədə həm dövlət büdcəsinə vergi ödənişləri artır, həm sosial prolemlər azalır.

### "Kəndə Qayıdış" sosial-iqtisadi proqramı nə vəd edir?

Bu istiqamətdə tədbirlərin və iqtisadi proqramların effektivliyini artırmaq üçün hökumət "Kəndə qayıdış" proqramı elan etməli, regionlarda yeni kiçik müəssisələrin, təsərrüfatların açılmasına daha böyük fikir verməlidir. Çünki, regionlarımızda iş üçün bütün imkanlar var - işi qüvvəsi, xammal, nəqliyyat infrastrukturu, yaxın bazarlar və s. Sadəcə, həm dövlət, həm də qeyri-dövlət investisiyaları regionlara yönəldilməli, güzəştli kreditlər, subsidiyalar artırılmalı, vergi və s. güzəştlər tətbiq edilməlidir. Xüsusilə, kiçik sahibkarlığa tam şərait yaradılmalıdır, bu, işsizlik problemini də birdəfəlik həll edə bilər. Buna görə də, bölgələrdə özünüməşğulluq proqramının miqyası və həcmi kəskin artırılmalıdır.

Pandemiya ilə bağlı yaranmış beynəlxalq vəziyyət bir daha göstərdi ki, gəlirlərimizin çox böyük hissəsini əldə etdiyimiz neft sektoruna güvənmək olmaz, qeyri-neft sektorunun inkişafı sürətləndirilməlidir. Bunu dövlətin başçısı də çıxşılarında qeyd edir.

Bunun üçün müvafiq maliyyə ehtiyatlarımız da var. Məsələn, xarici fondlarda 1-2 faizlik gəlirliliklə saxladığımız strateji ehtiyatlarımızın bir qismini geri çəkib, ölkə iqtisadiyyatına invest etmək vacibdir. Bu, dəfələrlə daha artıq gəlir gətirəcək. Xaricdən aldığımız gündəlik tələbat mallarının çox böyük hissəsini özümüzdə istehsal etmək üçün bütün imkanlar, xammal da var, sadəcə istehsal avadanlıqlarını alıb gətrmək kifayətdir. Ən pis halda yerli tələbatı ödəyəcəyik və xaricdən idxala yönələn külli miqdarda valyuta ölkəmizdə qalacaq.

### Post-pandemiya dövrünə necə hazırlaşmalıyıq?

Əlbəttə, qeyri-neft sektorunun sürətli inkişafı bu dövr üçün əlahiddə vacibdir. Xüsusilə də, kənd təsərüfatı, aqrar sənaye və yüngül sənaye sahələrinə daha çox üstünlük verməliyik. Qlobal iqtisadi böhran ölkələrarası ticarəti xeyi zəiflədib, ekoloji problemlər bir çox ölkələrdə ərzaq və dərman çatışmazlığına səbəb olub. Əgər qlobal vəziyyət bir qədər də gərginləşsə və ya dünyada digər gözlənilməz problemlər də yaransa, ölkələr öz ümidinə qalacaq. Bu şəraitdə biz istənilən qlobal böhranlara və forsmajor hallarına hazır olmalıyıq. Bunun üçün də ölkəmizin potensialından maksimum istifadə etməliyik.

Azərbaycan Prezidenti İlham Əliyev də məhz bu istiqamətdə çalışır və çıxışlarında bu məsələrin vacibliyini xüsusi vurğulayır. Şübhə yoxdur ki, tezliklə bu sahədə ciddi islahatlar və xüsusi proqramlar həyata keçiriləcək və biz özümüz istənilən qlobal böhrandan sığortalamış olacağıq.

**Elçin Bayramlı**

### "Hər 100 manatın 7 manatdan çoxunu tikinti sektoru formalaşdırır"



"İstər pandemiya, istərsə də post-pandemiya dövründə tikinti sektoru həm məşğulluğun təmin edilməsi, həm də iqtisadi dəyərin formalaşdırılması baxımından prioritet sahələrdən biri olaraq qalacaq. Son illər ölkə Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar tikinti sektoruna daha çox sərmayə cəlbinə imkan yaratmaqla yanaşı, bu sahədə idarəetmənin də müasir standartlara uyğun qurulmasına imkan verib". Bu fikirləri SİA-ya verdiyi açıqlamasında millət vəkili, iqtisadçı alim Vüqar Bayramov deyib.

Millət vəkili vurğulayıb ki, həm yeni sənaye obyektləri və xidmət sahəsi obyektlərinin açılışı, həm də mənzil fondunun yenilənməsi hesabına dayanıqlı, sabit inkişaf və artım müşahidə olunur. Vüqar Bayramovun sözlərinə görə, Azərbaycan iqtisadiyyatında yaranan hər 100 manatın 7 manatdan çoxunu məhz tikinti sektoru formalaşdırır.

"2019-cu ildə ölkədə ümumi daxili məhsul əvvəlki illə müqayisədə 2,2 faiz artaraq 81 milyard 681 milyon manata çatıb. Ümumi Daxili Məhsulun 7,3 faizi tikinti sektorunun payına düşüb. Bu isə o deməkdir ki, ötən il tikinti sektorunda 6 milyard manata yaxın dəyər formalaşmışdır. Rəqəmlərdən göründüyü kimi, tikinti sektoru iqtisadi inkişafda və xüsusən də iqtisadiyyatın dayanıqlığının güclənməsində xüsusi paya malikdir. Digər tərəfdən, pandemiya dövründə şəhərsalma, memarlıq və tikinti sektorunun inkişafı üçün də önəmli addımlar atılıb. Ötən il tikinti sahəsinə yatırılan 5 milyard 672 milyon manat xarici investisiya ilə müqayisədə daxili resurslar hesabına 12 milyard 867 milyon manat investisiya qoyuluşu həyata keçirilib. Göründüyü kimi, rəqəmlər bir tərəfdən sektorun sərmayə cəlbi baxımdan cəlbedici olduğunu, digər tərəfdən isə yerli maliyyə mənbələrinin səmərəli mobilizasiya olunduğunu göstərir", deyə Vüqar Bayramov diqqətə çatdırıb.

# Güclü təsirli maddələr gətirən şəxslər ifşa olunublar



Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən güclü təsir edən maddələrin müntəzəm olaraq külli miqdarda Rusiya Federasiyasından gömrük sərhədindən gömrük nəzarətindən gizli keçirərək Azərbaycan Respublikasına gətirməkdə, satış məqsədilə qanunsuz olaraq əldə etməkdə, saxlamaqda və daşımaqda, eləcə də digər hüquqazidd əməlləri törətməkdə şübhəli bilinən Azərbaycan Respublikasının vətəndaşları - Əsədov Emil Kamran oğlu, Hüseynov Şahin Mirhüseyn oğlu, Babayev Asif Siyafəddin oğlu, Hüseynov Rəşad Şahin oğlu, Musayev Vasif Zülfüqar oğlu, Əliyev Emil Xandadaş oğlu və Namazov Zaur Namaz oğlunun qanunsuz əməllərinin qarşısı alınıb.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, cinayət başında ifşa olunmuş həmin şəxslərin idarə etdikləri avtomobillərə və yaşadıqları mənzillərə keçirilmiş baxış zamanı külli miqdarda müxtəlif növ güclü təsir edən maddələr və digər maddi sübutlar aşkarlanaraq götürülüb.

Faktlarla bağlı Dövlət Təhlükəsizliyi Xidmətində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qaçaqmalçılıq) və 240.3.2-ci (külli miqdarda güclü təsir edən və ya zəhərli maddələrin qanunsuz dövriyyəsi) maddələri ilə cinayət işləri başlanılıb. Hazırda adları qeyd olunan şəxslərlə bağlı cinayət təqibi davam etdirilir.

# Heydər Əliyev Fondunun öl

## *Fondun dəstəyi ilə respublikanın müxtəlif bölgələrində inşa və*



***2020-2021-ci tədris ilində Heydər Əliyev Fondunun dəstəyi ilə respublikanın müxtəlif bölgələrində yeni inşa və əsaslı təmir olunan məktəb, eləcə də məktəbəqədər təhsil müəssisələri istifadəyə verilir. AZƏRTAC xəbər verir ki, Xaçmaz, Saatlı, Kürdəmir, Şamaxı, Lerik, Astara və Masallı rayonlarında yeni istifadəyə verilən məktəb və məktəbəqədər təhsil müəssisələri ilə tanışlıq olub.***



### Xaçmaz

Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilən Xaçmaz şəhər Cəfər Cabbarlı adına 6 nömrəli tam orta məktəbi yeni tədris ilində istifadəyə verilib.

Tanışlıq zamanı bildirilib ki, Cəfər Cabbarlı adına 6 nömrəli tam orta məktəb 1976-cı ildən fəaliyyətə başlayıb. Məktəb binası yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondu tərəfindən 1176 şagird yerlik binanın əsaslı təmiri həyata keçirilib. Tədris ocağı zəruri mebel və avadanlıqla, fənn kabinetləri ilə təchiz edilib. Təhsil müəssisəsində müasir istilik və işıqlandırma sistemi də qurulub. Yeni məktəb binasının həyətində qazanxana və su çənləri inşa olunub.

Məktəb binasında 55 sinif otağı, fizika, kimya, biologiya kabinetləri, fənn laboratoriyaları, 2 informatika, hərbi təlim, tibb, əmək təlimi otaqları, kitabxana, yeməkxana, akt zalı və açıq idman meydançası var. Məktəbin həyətinə asfalt döşənib, ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Bundan başqa, məktəb ərazisində Qarabağ döyüşlərində şəhid olan məzunların xatirə lövhəsi yaradılıb, iki idman meydançası salınıb.

### Saatlı

Saatlının ucqar yaşayış məntəqəsi olan Orta Muğan kəndində 432 şagird yerlik yeni məktəb binası kollektivin istifadəsinə verilib. Təhsil ocağı Heydər Əliyev Fondunun dəstəyi ilə inşa edilib.

Məktəbin direktoru Zakir Tağıyev bildirib ki, Orta Muğanda ilk dəfə 1930-cu ildə 4 illik siniflər üzrə tədrisə başlanılıb, 1958-ci ildə isə ümumi orta təhsil müəssisəsi yaradılıb. 1975-ci ildə isə inşa edilən məktəb binası isə tam orta məktəb kimi fəaliyyət göstərib. Son illər bina istismar müddətini başa vurduğu üçün tədrisdə bir sıra çətinliklər yaranırdı. Lakin yeni binanın inşası artıq bu çətin günləri geridə qoyur. Müasir standartlara uyğun inşa edilən binada bütün zəruri şərait yaradılıb.

432 şagird yerlik məktəb binası 2 mərtəbə və 3 blokdan ibarətdir. Binada 18 sinif otağı və fənn kabinələri, iclas və idman zalları, bufet var. Sinif otaqları və fənn kabinələri, zallar lazımi inventarlarla təmin edilib. Həmçinin məktəbin ərazisində stadion yaradılıb. Məktəbin həyətində abadlıq işləri görülüb, yaşıllıq zolağı salınıb.

Məktəb direktoru qeyd edib ki, ucqar kənddə belə bir tədris binasının istifadəyə verilməsi ölkə təhsilinə, o cümlədən Salyanda tədrisin keyfiyyətinin yüksəldilməsinə göstərilən qayğının bariz nümunəsidir. O, həm kollektiv, həm də kənd sakinləri adından Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Yeni məktəb binasının inşası müəllim kollektivi ilə yanaşı, şagird və valideynləri də sevindirib.

Məktəbin şagirdi Mələk Xəlilzadə sevincini belə ifadə edib: “Məktəbimiz üçün yeni binanın tikilməsinə görə çox sevinirik. Bu bizim üçün çox böyük bayram oldu. Sinif otaqlarımız işıqlı və genişdir, məktəbdə bütün şəraitimiz var. Çalışacağıq ki, bu gözəl məktəbdə əla qiymətlərlə oxuyaq”.

Övladları məktəbdə təhsil alan kənd sakini Hüseyn Muxtəsimov isə köhnə binadakı çətinliklərin artıq arxada qaldığını vurğulayıb: “Ötən illərdə məktəbdə tədris zamanı çətinliklər olurdu. Dam örtüyü bərbad olan binanın işıqsız otaqlarında istilik sistemi olmadığı üçün müəllimlərlə birgə şagirdlər də əziyyət çəkirdi. Lakin indi çox gözəl məktəb binası tikilib. Bunun üçün ölkə rəhbərinə və Heydər Əliyev Fondunun prezidentinə təşəkkür edirik”.





# kə təhsilinə növbəti töhfəsi

## əsaslı təmir olunan təhsil müəssisələrinin açılışları davam edir




"Regional İnkişaf" İctimai Birliyinin nümayəndələri və rayon rəhbərliyi müəllim və şagird kollektivi ilə görüşüb. Yeni tədris ilində kollektivə uğurlar arzu edilib, məktəblilərə dərs ləvazimatları hədiyyə olunub.

### Kürdəmir

Ku?rdəmir s?əhər H.Həsənov adına 7 saylı 40 yerlik ko?rpələr evi-us?aq bag?c?asının yeni binası da sentyabrın 16-da qapılarını balacaların üzünə açıb.

Bildirilib ki, Kürdəmir şəhər 7 saylı körpələr evi-uşaq bağçası 1992-ci ildə inşa olunub. 140 yerlik nəzərdə tutulan bağçada tikinti işləri tam başa çatdırılmadığı üçün 40 yerlik olaraq fəaliyyət göstərmişdi. Bina istifadəyə yararsız vəziyyətə düşdüyündən Heydər Əliyev Fondu tərəfindən yeni körpələr evi-uşaq bağçası inşa edilib.

40 yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı və digər inzibati və texniki otaqlar mövcuddur.

Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib.

Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb.



### Şamaxı

Şamaxı rayonunun Qus?c?u kənd ko?rpələr evi-us?aq bag?c?ası da fəaliyyətə başlayıb. Şamaxıdan 27 kilometr məsafədə yerləşən Quşçu kəndi rayonun iri yaşayış məntəqələrindəndir. Hazırda kəndin 5148 nəfər əhalisi var. Heydər Əliyev Fondu tərəfindən inşa edilən yeni uşaq bağçası kənd sakinləri tərəfindən böyük sevinclə qarşılanıb.

Qeyd edək ki, Quşçu kənd körpələr evi-uşaq bağçası 1986-cı ildən sovxoz üçün inşa olunan, uşaq bağçasına uyğunlaşdırılan birmərtəbəli binada fəaliyyət göstərib. Bağçanın binası ötən ilin fevral ayında baş verən zəlzələ zamanı qəzalı vəziyyətə düşmüşdü. Elə həmin il Heydər Əliyev Fondu tərəfindən yeni uşaq bağçasının inşasına başlanıldı və tikinti bu ilin avqustunda başa çatdırıldı. 40 yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, ayrıca tibb korpusu, camaşırxana, digər inzibati və texniki otaqlar mövcuddur. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, uşaq əyləncə qurğuları, söhbətgahlar quraşdırılıb.

Bağçanın işçiləri, eləcə də valideynlər belə gözəl məkana görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Nəvəsi Muradı uşaq bağçasına gətirən Atlas Fətullayeva da bu işdə əziyyəti keçənlərə minnətdarlığını bildirərək deyib: "Sağ olsun Birinci vitse-prezidentimiz, Heydər Əliyev Fondunun prezidenti, bizə belə bir hədiyyə etdi. Zəlzələdən sonra yararsız hala düşən bağçamız yenisi ilə əvəzləndi. Özü də əvvəlkindən qat-qat yaxşıdır. İndi körpələrimizdən tam arxayın ola bilərik. Bağçada hər cür şərait var".




### Lerik

Lerik rayonunun M.Qafarov adına Siyov kənd tam orta məktəbi 1923-cü ildə ibtidai məktəb kimi fəaliyyət göstərib. 1928-ci ildə məktəb üçün Akuşəpeşdə kəndində bina tikilib. 1933-cü ildə isə 7 illik məktəb kimi fəaliyyətə başlayıb, 1950-ci ildən orta məktəb statusu alıb. 1987-ci ildə Siyov kəndində fin tipli yeni məktəb binası tikilib və məktəb Siyov kəndinə köçürülüb.

Kənddə Heydər Əliyev Fondu tərəfindən yeni 132 şagird yerlik məktəb binasının inşasına 2019-cu ilin sonlarında başlanıb və tikinti işləri 2020-ci ilin iyul ayında yekunlaşıb. İkimərtəbəli bina iki korpusdan ibarətdir.

Məktəb zəruri mebel və avadanlıqla, fənn kabinetləri və laboratoriyalar isə əyani vəsaitlərlə tam təchiz edilib.

Məktəb binasında 11 sinif otağı, fizika, kimya laboratoriyaları, informatika, hərbi təlim, tibb və əmək təlimi otaqları, yeməkxana, akt və idman zalları və açıq idman meydançası da var.

Həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb. Siyov kənd tam orta məktəbinin istifadəyə verilməsi kənd sakinlərinin böyük sevincinə səbəb olub.

Bu kənddə fəaliyyət göstərən uşaq bağçası isə 1985-ci ildə kolxoz üçün inşa olunmuş, sonradan bir hissəsində Piran kənd ərazi icra nümayəndəliyi yerləşmiş binada 1989-cu ildən fəaliyyətə başlayıb. Bina ötən müddətdə istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Heydər Əliyev Fondu tərəfindən kənddə yeni körpələr evi-uşaq bağçasının inşasına 2019-cu ilin sonlarında başlanılıb. Tikinti işləri 2020-ci ilin avqust ayında başa çatıb.



İkimərtəbəli, 60 yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı və digər inzibati və texniki otaqlar mövcuddur. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, uşaq əyləncə qurğuları, söhbətgahlar quraşdırılıb.

### Astara

Astara rayonunun Ərçivan kənd körpələr evi-uşaq bağçası isə 1977-ci ildə sovxoz tərəfindən inşa olunmuş birmərtəbəli binada fəaliyyət göstərib. Bağçanın binası köhnəldiyindən istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Heydər Əliyev Fondu tərəfindən körpələr evi-uşaq bağçasının yeni binasının inşası həyata keçirilib və 80 yerlik bina tikilib. Bağçada yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, tibb otağı və digər inzibati və texniki otaqlar var. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz olunub.

Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb, dekorativ kol və ağaclar əkilib, uşaq əyləncə qurğuları quraşdırılıb.

### Masallı

Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunan digər bağça isə Masallı rayonunun Səmidxan kəndində yerləşir.

Səmidxan kənd körpələr evi-uşaq bağçasının binası 1987-ci ildə inşa olunub. Binada müxtəlif vaxtlarda kitabxana, həkim məntəqəsi və müxtəlif təşkilatlar fəaliyyət göstərib. Sonradan bina istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Əsaslı təmir işlərinə 2019-cu ilin sonlarında başlanılıb və bu ilin iyun ayında yekunlaşıb.

Yüz yerlik körpələr evi-uşaq bağçasında yataq və oyun otaqları, idman və musiqi zalları, mətbəx, yeməkxana, anbar, tibb otağı, camaşırxana və digər inzibati və texniki otaqlar mövcuddur. Müəssisə zəruri mebel və avadanlıqlarla tam təchiz edilib. Bağçanın həyətyanı ərazisində yenidənqurma və yaşıllaşdırma işləri aparılıb.

Sakinlər ucqar kənddə bağça binasının əsaslı təmir olunmasına görə Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# Kremlin Belarusiya oyunu

***Putin və Lukaşenko arasında Soçidəki görüş Rusiya media məkanında qızğın müzakirələrə səbəb olub. Görüşdən çəkilən kadrlar Lukaşenkonun çətin vəziyyətdə olduğunu və çıxışında balanssızlıq və qeyri-bərabərlik olduğunu nümayiş etdirir. Ancaq Putin bir idarəedici kimi oturur, hətta bir az yorğun olduğunu da gizlətmir və bəlkə də bunu nümayişkəranə edir. Vizual görüntülər belə bir sıra məqamlardan xəbər verir və tərəflərin hansı məqamda olduğunu sərgiləyir.***



Məlumdur ki, Putin və Lukaşenko bir-birlərinə heç tab etmirlər. Daha dəqiq desək, bu iki dövlət başçısı bir-birini hətta həzm etmək belə istəmirlər. Ancaq, məsələ burasındadır ki, çox şey, çox məqamlar təhlükə ilə üz-üzədir və hər ikisi bu vəziyyətlə hesablaşmaq məcburiyyətindədirlər. Hər bir ölkənin, eləcə də bu ölkələrin dövlət başçılarının öz maraqları var və görünən odur ki, bu məqamlar toqquşur.

Əvvəla, Lukaşenkonun taleyi sual altındadır. Görürük ki, Belorusiyada Lukaşenkonun hakimiyyəti sapdan asılı vəziyyətdədir. Yəni, onun hakimiyyətinə narazı olanların sayı, eləcə də əksəriyyətinin bu narazılığı açıq şəkildə küçələrdə bəyan etmələri qeyd etdiklərimizi təsdiqləyir. Bunu Lukaşenkonun özü də yaxşı bilir. Bilir ki, hakimiyyətlə vidalaşması an məsələsidir. Onu elə tab etmədiyi, həzm edə bilmədiyi Rusiya prezidenti ilə bir araya gətirən də məhz budur.

Digər tərəfdən, sual oluna bilər ki, bəs Rusiyanı, onun prezidentini Belorusiya prezidenti ilə bir masaya oturdan, görüşdürən səbəb nədir? Sual oluna bilər ki, niyə Putin Lukaşenkonun bu vəziyyətinə biganə deyil? Axı qeyd etdiyimiz kimi bu liderlər biri-birini heç həzm edə bilmirlərsə, indi Belorusiya prezidenti bir tərəfə, Rusiya liderini bu "yorğun" görkəmlə Lukaşenkonun qarşısında oturçağa vadar edən nədir? Heç şübhəsiz ki, Lukaşenkonun düşdüyü məqama Rusiya, ələlxüsus onun prezidenti biganə qala bilmir və bu dərhal hiss olunur. Hiss olunur ki, Rusiyanın Belarusdakı təsirinin perspektivləri hal-hazırda müzakirə mövzusudur. Məhz bu mövzu Putini Lukashenkonu dəstəkləməyə məcbur edir.

Görüşdən sonra Putinin sözçüsü, Kremlin Lukaşenkonun legitimliyini tanıdığını söylədi. Aydın məsələdir ki, bu, yəni Lukaşenkonun legitimliyini tanımaq ən azından Putinin özü üçün vacib məqamdır. Çünki o, küçənin təzyiqi altında ölkə liderinin kənarlaşdırılması presedenti ilə üz-üzə qalmaq istəmir. Belə bir presedent onun özü üçün arzuolunmazdır. Bu baxımdan küçə nümayişçilərinin tələbi deyil, Lukaşenkonun mövqeyini müdafiə etmək niyyətindədir, ən azından öz xatiri üçün.

Belarus oyununda Kreml üçün daha bir vəziyyət var. Bələki, Lukaşenko vasitəsilə anti-Qərb ritorikası yaradılır. Axı Qərd Lukaşenkonun legitimliyini tanımır. Digər tərəfdən, hərbi təcavüz təhdidləri fonunda Baltikyanı ölkələr istiqamətində irəliləyişə yenidən baxmaq marağı özünü göstərir. Bu planlarla bağlı məlumatların sızması ilə Kreml Qərbdən güzəştlər almaq və sanksiyaları yumşaltmaq niyyətindədir. Qərb Lukaşenkonu qanuni bir prezident kimi tanımadığını bəyan etməsi bilavasitə bəzi məqamlara aydınlıq gətirir.

Rusiyanın daxili mənbələri iddia edirlər ki, Kreml və Putin şəxsən indi çətin vəziyyətdədir və əvvəlki planlarını ya təxirə salmağa, ya da tamamilə həmin planlardan imtina etməyə məcburdur. Seçkilərdən sonra Kremlin Belarus ictimaiyyətindən belə bir davranış gözləmədiyi və Belarusun birləşməsinin arzuolunmaz nəticələrə səbəb ola biləcəyi qeyd olunur. Rusiyaya qarşı narazılıq Lukaşenkonun dəstəyi sayəsində böyüyür və anketlərə görə, respondentlərin yalnız 3%-i Rusiya ilə ortaq bir dövləti dəstəkləyir. Üstəlik, Rusiya ilə yaxın münasibətləri dəstəkləyənlərin sayı, 60 faizdən 35 faizə qədər olmaqla, iki dəfə azalıb.

Beləliklə, daxildəkilərin dediyi kimi, Putin Lukaşenkonu "boşaltmaq", yəni sakitləşdirmək üçün bir anı itirib və özünü dalana dirəyib və hər gün onun dəstəyi anti-Rusiya hissini iki qat artırır. Bundan əlavə, nəzərə almaq lazımdır ki, Belarusiya Ukrayna deyil. Bələki, Belorusiya kifayət qədər yüksək bir ictimai konsensusa sahibdir, etnik və dini zəmində bölünməmişdir. Bu baxımdan, elə bu vəziyyətdə nəticələr gözlənilməz ola bilər.

Məhz buna görə də Rusiya, Belarusiyanı itirmək təhlükəsi kimi reallıqla üz-üzə olduğunun fərqindədir. Bəlkə də hələ real itirmə faktı qarşısında olduğu qənaətindədir. Bu baxımdan, Rusiyanın yürütdüyü siyasətin həqiqətən də "möcüzələr" yaratmağa hesablandığı qənaətinə gəlməkdə hər kəs haqlıdır.

Bu mövcud vəziyyət əlbəttə ki, başqa bir məqamlardan xəbər verir və Rusiyanın bu zamana qədərki taktikasını arxa plana salır. Belorusiyada baş verənlərin fonunda yaranan şərtlər bir növ, Putini əvvəlki planlarından imtina etmək məcburiyyətində qoyur. Bu səbəbdən Soçidə yeni sənədlər imzalanmadı. Əslində, gözlənilmirdi də. Hadisələrin gedişi təsdiq edir ki, Lukaşenkoya yalnız 1.5 milyard dollar borc verilməsi ilə kifayətlənildi. Bu da, bu borc da çox güman ki, ölkəsinin Rusiyaya olan əvvəlki borclarının ödənilməsinə məsrəf ediləcək bəlkə də. İndi Kremlin vəziyyətdən çıxış yolu axtardığını hər kəs başa düşür. Bunu hər iki ölkə başçıları, xüsusilə Lukaşenko yaxşı bilir. Bilir ki, hal-hazırki vəziyyətdə Kreml variantları nəzərdən keçirir. Rusiya prezidenti Putin və Belorusiya prezidenti Lukaşenkonun son görüşünün təəssüratları təsdiq edir ki, Rusiya tərəfi indi Lukaşenkaya "daxili problemləri" həll etməsi, daha dəqiq desək, vəziyyətdən çıxması üçün vaxt verib.

***İnam Hacıyev***

## "CÜMHURİYYET" nəşri: "PKK terrorçuları Qarabağa yerləşdirilir"



Livan ermənilərinin ardınca, işğal altındakı Dağlıq Qarabağa PKK terror təşkilatının "xüsusi təyinatlı gücləri" yerləşdirilib. SİA xəbər verir ki, bu sensasiyalı xəbəri Türkiyənin "Cümhuriyyet" qəzeti yazıb. Qardaş ölkənin nəşri qeyd edir ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində demoqrafik vəziyyətin dəyişdirilməsi yönündəki fəaliyyətini davam etdirir. Beyrutda baş vermiş partlayışdan sonra Paşinyan hökuməti 100-dən çox Livan ermənisini işğal altındakı Dağlıq Qarabağ və ətraf ərazilərinə yerləşdirib. Buna qədər isə, Qarabağda Suriya ermənləri yerləşdirilib.

"Demoqrafik vəziyyətin dəyişdirilməsi ilə yanaşı, Paşinyan Dağlıq Qarabağda hərbi fəaliyyəti də gücləndirib. Regional təhlükəsizlik sahəsindəki mənbələrin informasiyalarına görə, PKK terror təşkilatının sözdə "xüsusi təyinatlı gücləri" Dağlıq Qarabağa göndəriləərək orada ermənilərlə təlimlər keçirlər. PKK Qarabağda yeni hücumlara hazırlaşır və bu arada 250 erməni hərbi qulluqçusu Suriyaya PYD/YPG terror təşkilatına birləşmək üçün göndərilib", türk qəzeti qeyd edir. Nəşrdə o da bildirilir ki, erməni hərbçiləri ilə PKK əməkdaşlığı Fransanın ortaqlığı ilə təşkil edilib. Erməni hərbçiləri PKK ilə məhz Fransanın nəzarəti və ortaqlığı ilə danışıqlar aparır. İranın Azərbaycandakı keçmiş səfiri Əfşar Süleymani bugünlərdə bəyan edib ki, livanlı ermənilərin Dağlıq Qarabağa köçürülməsi sadəcə, "aysberqin görünən tərəfidir"

"Keçmiş səfir deyib ki, son iki ayda PKK-nın yüzlərlə terrorçusu İraq və Suriyadan Dağlıq Qarabağa yerləşdirilib", "Cümhuriyyet" qəzeti yazır.

Xatırladaq ki, daha əvvəllər də bənzər məlumatlar ictimailəşdirilib və qeyd olunub ki, Azərbaycanın işğal altındakı ərazilərində, o cümlədən Kəlbəcər rayonunda PKK terror təşkilatının təlim düşərgələri mövcuddur.

***Rövşən RƏSULOV***

## ÜST yeni pandemiyaya hazır olmağa çağırıb

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bəşəriyyəti yeni pandemiyaya hazır olmağa çağırıb. SİA-nın məlumatına görə, ÜST bu barədə BMT-nin 75-ci Baş Assambleyasında bəyan etmək niyyətindədir. Təşkilat yaydığı bəyanatda bildirib ki, COVİD-19 pandemiyası dünyanın bu cür xəstəliklərlə faciəvi şəkildə hazırlıqsız olduğunu göstərdi:"Biz hamımız birlikdə növbəti pandemiyaya hazırlaşmalıyıq. Çoxsaylı əlamətlərə və xəbərdarlıqlara baxmayaraq, dünya bu vəziyyətə hazırlıqsız olduğunu göstərdi".

Qeyd edək ki, bu günədək dünyada 29,7 milyondan çox şəxs koronavirusa yoluxub. Onlardan 21,5 milyondan çoxu sağalıb, 939 967 min nəfər ölüb.

## Rusiyada ölkəyə giriş qaydalarına dəyişiklik edilir

Rusiyada ölkəyə giriş qaydalarına dəyişiklik edilir. AZƏRTAC xəbər verir ki, yeni qaydalara əsasən, Rusiya vətəndaşlarının digər ölkələrdə yaşayan yaxın qohumlarına bir illik viza veriləcək. Rusiya vətəndaşının digər dövlətin vətəndaşı olan həyat yoldaşı, övladları, valideynləri, bacı və qardaşları, nənə və babaları, nəvələri bir il müddətinədək viza ala bilərlər.

Bundan əlavə, Rusiyada olan əcnəbilərin viza almaq hüququnu saxlamaq üçün hər üç aydan bir sərhədi keçib geri qayıtmasını tələb edən qayda da aradan qaldırılacaq.

# “Azərbaycan və Türkiyə bütün sahələrdə bir-birinə dəstəkdir”

***“Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, Türkiyə Azərbaycan üçün yalnız dost, tərəfdaş deyil, qardaş ölkədir. Bu gün də Azərbaycan-Türkiyə qardaşlığı və dostluğu bütün dünya üçün bir nümunədir. Tarixi köklərə, dostluğa, qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə əlaqələri bütün sahələrdə uğurla inkişaf edir.***



Hər bir ölkənin inkişafında iqtisadi amili nəzərə alsaq, iki dost ölkənin birgə səyləri, siyasi iradəsi və qətiyyəti nəticəsində reallaşdırılan layihələr təkcə iştirakçı deyil, dünya dövlətlərinin davamlı iqtisadi inkişafını şərtləndirir, ölkələr, xalqlar arasında körpünü daha da möhkəmləndirir. Türkiyə-Azərbaycan birliyi beynəlxalq təşkilatlar çərçivəsində də atılan addımlarda öz aydın ifadəsini tapır”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Malik Həsənov bildirib.

Diqqəti Bakının işğaldan azad olunmasının 102-ci ildönümü münasibətilə Azərbaycan və Türkiyə Prezidentlərinin telefon danışıqlarında, eyni zamanda, qarşılıqlı təbrik məktublarında əksini tapan fikirlərə, 2018-ci ildə keçirilən paradda Türkiyə Silahlı Qüvvələrinin “Türk Ulduzları”nın uçuşlar edib səmada Azərbaycanın və Türkiyənin dostluğunun, qardaşlığının və qəlb birliyinin rəmzi olan ürək şəklini çəkmələrinə yönəldən M.Həsənov bildirib ki, Bakının azad olunmasının ildönümü Türkiyə-Azərbaycan qardaşlığının əbədilik, sarsılmazlıq rəmzidir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan məktubunda bildirir ki, ölkələrimiz arasındakı “Bir millət, iki dövlət” şüarının tarixi bünövrəsini qoyan Qafqaz İslam Ordusu ortaq qürur mənbəyimiz və əbədi qardaşlığımızın timsalı olmuşdur. Bakıda olduğu kimi, Çanaqqalada da çiyin-çiyinə mübarizə aparan əcdadlarımızdan bizə miras qalan qardaşlığımız bu gün tale birliyimizin də mənəvi zəminini təşkil edir.

Millət vəkili onu da bildirib ki, bu gün Azərbaycan-Türkiyə münasibətlərinə hansı sahədən baxsaq böyük inkişafın, yeni- yeni hədəflərə doğru birgə addımların şahidi olarıq: “Bu birlik regionda sabitliyin, təhlükəsizliyin qarantıdır. Təkcə cari ildə bu birliyi nümayiş etdirən məqamlara diqqət yetirmək kifayətdir. İyulun 12-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatına qardaş Türkiyə Respublikası qəti mövqe bildirdi. Dünyanın müxtəlif ölkələrində Azərbaycan və Türkiyə diaspor təşkilatları birgə aksiyalar keçirdilər, ermənilərin əsl siması bir daha dünya ictimaiyyətinə açıqlandı. Dünya bir daha bu reallığın şahidi oldu ki, Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır. Rəsmi Ankaranın yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyi daim dövlətimiz tərəfindən yüksək dəyərləndirilir. Azərbaycanın haqlı mövqeyini dünyanın ən nüfuzlu təşkilatlarının tribunasından müdafiə edən rəsmi Ankara bütün münaqişəli məsələlərin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinin vacibliyini bəyan edir. Düşünürük ki, bu günün əsas müzakirə mövzularından olan Azərbaycan- Türkiyə media platformasının yaradılması da strateji əhəmiyyətli bir qərardır, hər iki dövlətin maraqları baxımından uzunmüddətli perspektivlərə hesablanıb, həqiqətlərimizin təbliğinə, erməni diasporunun apardığı qərəzli kampaniyalara qarşı mübarizəyə böyük dəstəkdir. Göründüyü kimi, bütün sahələrdə uğurla inkişaf edən Azərbaycan-Türkiyə əməkdaşlığının media sahəsində qurulmasına böyük ehtiyac vardır”.

M.Həsənov Azərbaycan-Türkiyə əlaqələrində hərbi əməkdaşlığın da mühüm yer tutduğunu diqqətə çatdırıb: “Hərbi əməkdaşlıq haqqında Sazişə əsasən, illik plana uyğun olaraq iyulun 29-dan avqustun 10-dək Azərbaycanda hər iki ölkənin quru qoşunlarının və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirildi.

Möhtərəm Prezidentimiz İlham Əliyevin Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbulu zamanı səsləndirdiyi fikirlər ölkələrimiz arasında bu sahədə mövcud əlaqələrin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə əminliyi özündə ehtiva edir. Hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəmi olduğunu vurğulayan dövlətimizin başçısı İlham Əliyev, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsində də əhəmiyyəti və faydası olduğunu diqqətə çatdırmışdır”.

Malik Həsənov Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə Azərbaycan parlamentinin nümayəndə heyətinin Ankaraya səfərini də iki ölkə arasında münasibətlərin inkişafına böyük töhfə olduğunu qeyd edib: “Milli Məclisin Sədrinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop ilə görüşlərində də bu fikir dönə-dönə qeyd edilmişdir ki, qardaş və dost ölkələrimizin və xalqlarımızın qarşılıqlı münasibətləri ulu öndər Heydər Əliyevin “Bir millət, iki dövlət” şüarına uyğun olaraq bütün sahələrdə müvəffəqiyyətlə inkişaf edir və genişlənir. Sadiqlik, etibar və qarşılıqlı dəstək əsasında uğurla inkişaf edən bu birlik, həmrəylik dövlətimizin başçısı İlham Əliyevin Yunanıstanın ölkəmizdə yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən səsləndirdiyi “Biz heç bir tərəddüd etmədən Türkiyəni dəstəkləyirik və bütün hallarda dəstəkləyəcəyik” fikirlərində öz əksini tapıb. Bu, dünyaya mesaj olmaqla yanaşı, dostluqda, qardaşlıqda sədaqətin, etibarın təsdiqidir. Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi Azərbaycan parlamentinin nümayəndə heyəti ilə görüşündə səsləndirdiyi “Azərbaycan Prezidentinin Yunanıstanın Azərbaycana yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edərkən söylədiyi sözlər Türkiyənin 83 milyonluq əhalisinin qəlbinə su səpdi. Yunanıstanla bağlı məsələdə Türkiyəyə verdiyi dəstəyə görə Azərbaycan tərəfinə xüsusi təşəkkürümüzü bildiririk” fikirləri sədaqətə, etimada söykənən dostluğun hər iki ölkədə necə rəğbətlə qarşılandığının təsdiqidir.

# Cavid Osmanov: “Radikal müxalifətin siyasi divident qazanmaq cəhdi qəbulolunmazdır”



“Azərbaycan hüquqi dövlətdir və hər kəs qanun qarşısında bərabər məsuliyyət daşıyır. Eyni zamanda, ölkəmizdə insan hüquqlarının qorunması tam təmin edilib. Dövlətimizin siyasətində bu amillər müstəsna yer tutur”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Cavid Osmanov deyib.

Cavid Osmanov bildirib ki, son vaxtlar radikal müxalifət sosial şəbəkələr vasitəsilə Tofiq Yaqublunun həbsi ilə bağlı süni ajiotaj yaratmağa çalışır. Onun sözlərinə görə, radikalların belə bir cəhdi qəbulolunmazdır. Çünki T.Yaqublu konkret faktlar və əməllər əsasında məsuliyyətə cəlb edilib. Bu səbəbdən də, bu hadisənin siyasiləşdirilməsi yolverilməzdir. Əgər biz ölkədə qanunun aliliyindən danışırıqsa, burada siyasi spekulyasiyalara yol verilməməlidir.

“Digər tərəfdən, müəyyən dairələr T.Yaqublunun səhhəti ilə bağlı da yanlış rəy formalaşdırmağa çalışırlar. Məlumdur ki, o, səhhəti ilə əlaqədar olaraq xəstəxanaya köçürülüb və T.Yaqublunun vəziyyəti həm müvafiq dövlət qurumlarının, həm ombudsmanın, həm də hüquq müdafiəçilərinin monitorinqi altındadır. Əlbəttə ki, onun sağlamlığına qovuşmasını arzu edirik və bunun üçün lazımi addımlar atılır. Amma T.Yaqublunun sağlığ durumundan indiki halda siyasi divident qazanmaq üçün istifadə edilməsi nə siyasi mədəniyyətə, nə də əxlaqa uyğun deyil. Bilirsiniz ki, son illər ölkəmizdə həyata keçirilən hüquq islahatlar cinayət hüququnun humanistləşdirilməsini də özündə ehtiva edir. Bu istiqamətdə qanunvericiliyə mühüm dəyişikliklər edilib. Azərbaycan dövlətinin siyasətində də humanizm mühüm yer tutur. Bu baxımdan, humanizm siyasəti davamlıdır və dönməz prosesdir”-deyə, deputat qeyd edib.



**Təhmasib Novruzov**

# Uğurlu islahatların ağrılı məqamları!

***Azərbaycanda iki ildir ki, inqilabi xarakterli islahatlara start verilib. İslahatlar ölkənin bütün sahələrini- kadr, idarəetmə, ideologiya, korrupsiyanın aradan qaldırılması, insanların sosial həyatı, dövlət strukturlarının yenidən qurulması və sair sahələri əhatə edir. O cümlədən ən ağrılı və böyük risk tələb edən xarici siyasətdə və iqtidar-müxalifət münasibətlərində də yeni formaya keçidi müşahidə etməkdəyik.***

Yəni iqtidar, indiki hakimiyyət cəmiyyətin saflaşması və demokratiyanın dərinləşməsi yönündə ciddi addımlar atır. Ölkənin bu gününü və gələcəyini düşünən hər kəs, xüsusilə siyasi müxalifət, media və cəmiyyətin ziyalı təbəqəsi bu islahatlara daha çevik adekvat reaksiya verməlidir. Çünki islahatlar sadəcə indiki hakimiyyət komandasına hansısa divident gətirmək üçün deyil, xalqın və dövlətin gələcəyi naminə həyata keçirilir. Belə də xalqını, dövlətini sevən hər kəs bu islahatlara münasibətdə şəxsi narazılıqlarını, eləcə də siyasi iddialarını bir kənara qoymalı, onun daha effektiv nəticələri olması naminə dəstəyini əsirgəməməlidir.

Tarixən islahat həyata keçirən iqtidarlar əks qüvvələrin ciddi təzyiqinə tuş gəliblər. Stolıpinin islahatları onun tarixi məğlubiyyəti ilə sonuclandı. Lap son dövrün məlum faktı - Mixail Qorbaçovun da “yenidənqurma” konsepsiyası SSRİ-nin dağılmasına səbəb oldu. Ona görə ki, onların islahatları gerçək inkişafa, xalqın rifahına, dövlətin qüdrətlənməsinə hesablanmamış, əksinə xalqın və dövlətin istəklərinin əksinə yönəlmişdi. Buna bənzər misallar dünya tarixindən çox gətirmək olar. Ancaq uğursuz islahat təşəbbüslərindən uzun-uzadı daışıb vaxtınızı məşğul etmək istəmirəm.

Bir də qardaş Türkiyədə Rəcəb Tayyib Ərdoğanın başladığı və uğurla davam edən islahatını xatırlatmaq istəyirəm. Dünyanı gözlənilməz gedişləri və səksən milyonluq xalqın iyirmi ilə yaxındır ki, birmənalı dəstəyini almağa nail olması ilə heyran qoyan Ərdoğan və onun komandası, islahatların ən uğurlu modelini ortaya qoydu və istəyinə də nail olmaqdadır. Çünki bu istəklər xalqın, cəmiyyətin istəklərini əks etdirir. Eyni fikirləri bu gün Azərbaycanda başlayan və uğurla davam edən İlham Əliyev islahatları haqqında da söyləmək mümkündür. Yenə də xalqın və dövlətin gələcəyinə hesablanmış inqilabi xarakterli islahatlar əks təsirlərlə üzləşsə də, manevrlər çox məharətlə dəf edilməkdə və islahatlar dərinləşməkdə davam edir. Bunlar hamısı gözəldi, qürurvericidir. Lakin gözəl olmayan, bizi içimizdən narahat edən tərəfləri də var. O da ibarətdir ondan ki, əksər müxalif partiyalar siyasi opponentliklərini saxlamaqla yanaşı, islahatların uğurla davam etməsinə dəstək verir. Ancaq AXCP və Müsavat adlarını mənimsəmiş, bu adların Azərbaycan xalqının tarixindəki müstəsna xidmətlərinə kölgə salan siyasi təşkilatlar hələ də filin qulağındakı yuxulamaq xəstəliyindən qurtula bilmirlər. Çox qəribədir, dünənə kimi Azərbaycanın Rusiya ilə əlaqələrini kəsib qərbə inteqrasiya etməsini siyasi iddia kimi ortaya qoyan həmin siyasət dəllalları, bu gün Rusiyaya münasibətdə hakimiyyətin siyasətindəki ciddi dəyişikliklərə də əks mövqe nümayiş etdirməkdən çəkinmirlər. Ölkə Prezidenti ümumtəhsil məktəblərində xarici dildə təhsillə bağlı söylədiyi, hər birimizin qəlbindən keçən fikirlərə onların münasibəti göz qabağındadı. Utanmadan Rusiyanı Azərbaycanın dünyaya çıxış üçün “nəfəs borusu”(?) adlandıran Hikmət Hacızadə (AXC hakimiyyəti dövründə Rusiyada Azərbaycanın səfiri olmuş indiki müsavat yetkilisi) özü rus dilində oxuduğuna görə dərhal ruspərəstlik mövqeyini qoydu ortaya. Bu adam hələ anlamaq istəmir ki, Azərbaycan türkləri dünyaya Nizamini, Xaqanini, Nəimini, Nəsimini, Füzulini, Xətaini bəxş edəndə hələ rus dilində bir bənd şeir də yazılmamışdı. Bu xalqın Memar Əcəmisi, Nəsrəddin Tusisi dünya memarlığına və elminə töhfələr verəndə, ruslar daxmalarda “samaqon” içib, küçələrə yıxılırdılar. Hələ böyük imperiyalar quran sərkərdələrimizdən söhbət açmıram. Bəzi ziyalılarımızın da, siyasi məqsədlərlə Hikmət kimilərin söylədiklərinə züy tutmaları isə adamın içini göynədir. Rus dilində yazdığı romanlarla dünyaya çıxan Çingiz Abdullayev anlamalıdır ki, bu xalq məhz Ana dilində yaratdıqları ilə dünyaya çıxan yeni nəsil yetişdirməlidir və buna görə də Ana dilinə münasibət kökündən dəyişməlidir.

Xülasə, belə sərsəmliklərə son veriləcəyinə əminəm. Rusiyaya meyilli qüvvələrin indiki məqamda sərgilədikləri anti-Azərbaycan mövqe ilə bağlı isə indilikdə heç nə demirəm. Çünki bu, çox ağrılı və mənfur bir niyyətdir ki, təəssüf, belələrinə də rast gəlirik. Bu haqda gələn yazımızda...

# Zərifə Quliyeva: "Azərbaycanın iqtisadi platforması liderlik gücünün göstəricisidir"

***Bu gün xalqımız ölkəmizdəki inkişafı, uğurları görür və şahidi olur. Məhz son illər ərzində ölkəmizin ictimai-siyasi, iqtisadi, sosial, mədəni, demokratik inkişafı yönündə həyata keçirilən islahatlar və xarici siyasət sahəsində qazanılan uğurları gördükdə, bu uğurları bir daha təhlil etmək zərurəti duyulur. Bu gəlişi söz deyil, real faktlara əsaslanan nəticələrdir. Həmin uğurlar, əldə edilən nailiyyətlər bir mənalı olaraq ölkə Prezidenti İlham Əliyevin məqsədyönlü və qətiyyətli siyasətinin məntiqi göstəricisidir.***



*Zərifə Rzaqulu qızı Quliyeva, YAP Qadınlar Şurasının İdarə Heyətinin üzvü, Nəsimi YAP təşkilatı İdarə heyətinin üzvü, "Modern ailə və inkişaf" İctimai Birliyinin sədri*



Son 17 il - dövlət başçısı İlham Əliyevin Prezidentlik dövrünə diqqət yetirmək kifayətdir ki, bu reallığın şahidi olasan. Bu son 17 il ərzində Azərbaycanda həyat günbəgün dəyişir. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması ilə yanaşı Azərbaycanın siması yenilə-şir. Dəyişən təkcə Azərbaycanın gözlə görünən reallıqları deyil, eyni zamanda insanların düşüncələri də dəyişib. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam hər il görülən daha böyük uğurların nəticələrini gördükcə sabaha daha böyük bağlılıqla inanır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm".

17 il öncə deyilənlər bu gün öz nəticəsini verib. Bu gün Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində son 17 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir.

### Son 17 ilin uğur reallıqları - faktlar, rəqəmlər...

Son 17 ildə sürətli inkişaf yolu keçən Azərbaycan dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. Belə ki, 17 il öncə, 1,8 milyard dollar valyuta ehtiyatına sahib idisə, bu gün həmin rəqəm 50 milyard dollara yüksəlib. Sözsüz ki, bu ölkə Prezidenti İlham Əliyevin düşünülmüş uğurlu siyasəti nəticəsində əldə olunub.

Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində son 17 ildə dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan Dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir.

### Qısqanclıqla qarşılanan həqiqətlər

Göründüyü kimi, bütün çətinliklərə baxmayaraq, məhz ölkə Prezidentinin düşünülmüş siyasətinin nəticəsidir ki, hətta böhranlı, həmçinin, illərdə Azərbaycan sürətlə inkişaf edə bilir. Belə ki, iqtisadi potensialın gücləndirilməsi, müasir sosial infrastrukturun yaradılması, minlərlə istehsal müəssisəsinin, nəhəng zavod və fabriklərin, yeni iş yerlərinin açılması, əmək haqlarının, pensiyaların, müavinətlərin ardıcıl şəkildə artırılması əhalinin sosial durumunun əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub. Amma buna baxmayaraq bəzi daxili siyasi qruplar və xarici dairələr, onlara qulluq edən mətbuat əsassız, qərəzli şəkildə həyata keçirilən siyasəti ləkələməyə, onun əhəmiyyətini azaltmağa çalışır. Bu mənada bir sıra müxalifət funksionerləri, mətbuatı Azərbaycanda əmək haqlarının, pensiyaların, təqaüdlərin artırılması ilə bağlı son sərəncamları öz maraqlarından irəli gələn siyasi manipulyasiya obyektinə çevirmək üçün müəyyən cəhdlər göstərirlər. Əgər ölkəmizdə son 16 ildə əmək haqlarının mütəmadi qaydada yüksəldilməsini nəzərə alsaq bu iddianın düzgün olmadığını görmüş oluruq. Bu baximdan elementar bir müqayisəni vermək istərdim. Əgər Azərbaycanda 2013-cü ilin dövlət büdcəsi 25 milyard dollar təşkil edirdisə, Ermənistanın dövlət büdcəsi isə 2,5 milyard dollardır. Bu, o deməkdir ki, Azərbaycanın dövlət büdcəsi Ermənistandan 10 dəfə çoxdur. Eyni zamanda, Gürcüstanın dövlət büdcəsi 4.8 milyard dollardır. Bu da ondan xəbər verir ki, Azərbaycanın dövlət büdcəsi Gürcüstandan 5 dəfə çoxdur.

Dünyanı ağuşuna alan pandemiya elan olunduğu ilk gündən dövlətimiz nizamlı və sistemli formada koronavirus (COVİD-19) infeksiyasına qarşı mübarizə tədbirləri həyata keçirib.

Prezident İlham Əliyevin göstərişi ilə Nazirlər Kabinetinin pandemiya ilə mübarizə məqsədilə təsdiqlədiyi Tədbirlər Planının icrasına uğurla həyata keçirilir. Onun nəticəsidir ki, görülən bütün lazımi qabaqlayıcı tədbirlər, tətbiq olunan qadağalar öz müsbət nəticəsini verib və verməkdədir. Vaxtında görülmüş tədbirlər nəticəsində başqa ölkələrdən fərqli olaraq xalqımız bu vəziyyətdən az itkilərlə çıxır və ölkəmizdə koronavirus xəstəliyi nəzarət altındadır. Vəziyyətə həssaslıqla yanaşan dövlətimiz müsbət vəziyyətin daha da yaxşılaşdırılması üçün kütləvi tədbirlərin keçirilməməsi, məsafədən idarəetmənin təşkili, sanitar qaydalara əməl etməyi xüsusi tələb kimi qoymuş və müvafiq qanunvericilik aktları mövcud vəziyyətə uyğunlaşdırılmışdır. Yarım il ərzində karantin rejimi vəziyyətə uyğun olaraq bəzən yumşaldıldı, bəzən də sərtləşdirildi. Buna uyğun olaraq, qanunvericiliyə müvafiq dəyişikliklər də edildi. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva dəfələrlə vətəndaşlara müraciət edərək, onları ehtiyatlı olmağa, qadağaları nəzərə almağa, karantin qaydalarına əməl etməyə çağırıblar. Onlar özləri şəxsi nümunə göstərərək qapalı məkanlarda maska taxır, bütün tədbirlərdə sosial məsafə saxlayırlar. Necə deyərlər, ən gözəl tərbiyə şəxsi nümunədir. Azərbaycan hüquqi dövlətdir, ölkəmizdə qanunun aliliyi təmin edilib, heç kim qanundan üstün ola bilməz, hamı qanun qarşısında bərabərdir və öz hərəkətlərinə görə məsuliyyət daşıyır. Hər bir vətəndaş kimi, ictimai-siyasi xadimlər, hökumət üzvləri, xüsusilə deputatlar karantin rejiminə nəinki riayət etməli, həm də şəxsi nümunə göstərməlidirlər.

### Hər kəs özündə sosial məsuliyyət hiss etməlidir

Doğurdan da, bugünkü məqamda ən önəmli məsələlərdən biri də sosial məsuliyyət məsələsidir. Sirr deyil indiki situasiya təkcə dövlət orqanları qarşısında deyil, hər bir vətəndaş qarşısında ciddi məsuliyyət müəyyənləşdirir. Hamı başa düşməlidir ki, sosial yönündən asılı olmayaraq atılan müvəqqəti və məcburi addımların cəmiyyətin sağlamlığı, təhlükəli virusun neqativ təsirlərindən maksimum dərəcədə qorunmaq üçündür.

Bir məqamı da təəsüflə vurğulamaq lazımdır ki, sosial şəbəkələrdə şayiə və dezinformasiya, təşviş doğuran xəbərlər yayanlar da var və belələri təhlükəsizlik orqanları tərəfindən ciddi tədbirlər görüləcək, görülməlidir də.

Belə ki, bu günlərdə bəzi sosial şəbəkələrdə Azərbaycanda ərzaq qıtlığı yaranacağıyla bağlı heç bir əsası olmayan xəbərlərin yayılmasıdır. Amma anlamaq lazımdır ki, koronavirusla bağlı situasiya hökumətin tam nəzarətindədir və bütün atılan addımlar Azərbaycan insanı, onun sağlamlığı və təhlükəsizliyi üçündür!

Bu gün ölkəmizin bu uğularını həzm edə bilməyən bəzi qərəzli qurum və təşkilatlar anlamalıdırdar ki, Azərbaycana qarşı nə qədər qərəzli olsalar da, faktlar qarşısında geri çəkilməyə məcburdurlar və məcbur olacaqlar. Belə ki, Azərbaycan hər il əldə etdiyi nailiyyətlərlə dünyanın sivil, demokratik, dinamik inkişaf edən ölkələri sırasında yer aldığını konkret faktlar əsasında dünyaya sübut edir.

Bəli, bu, həqiqətən də, belədir! Bu gün Cənab Prezidentin hər zaman olduğu kimi sözü ilə əməli tam üst-üstə düşür. Və ölkə Parezidenti İlham Əliyev cənablarının dediyi kimi: "Hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə haqlı olaraq fəxr edə bilər".

Bir sözlə, bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycan dövləti daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Əminliklə deyə bilərik ki, Azərbaycan ölkə Prezidenti İlham Əliyevlə hələ çox böyük zəfərlərə imza atacaq.

# Dəlil yox, sübut yox, ortada saxta hesabat var

## *"Human Rights Watch"un direktor müavininin Azərbaycana növbəti qərəzi*

***Yenə də hədəf Azərbaycandır. Bu günlərdə "Human Rights Watch"un təşkilatının Avropa və Orta Asiya üzrə direktor müavini Reyçel Denberin (Rachel Denber) Azərbaycana qarşı növbəti qərəzli hesabatı verilib. Yenə də eyni oyun, eyni hücum. Hesabatda hər zaman olduğu kimi, bu dəfə də ölkəmizə qarşı qərəzli münasibət göstərərək yenə də Azərbaycanı sonuncu sıralarda qeyd edib.***



195 ölkənin yer aldığı hesabatda "qeyri-azad" ölkələr sırasında "yer aldı"ğı bildirilir. Təbii ki, təşkilatın qərəzli davranışı hər zamankı kimi ictimaiyyət tərəfindən qınaqla qarşılanıb. Hesabatın lağ-lağı obyektinə çevrilməsinə səbəb olan əsas amil isə guya Ermənistanda vəziyyətin bizdən yaxşı olduğunun qeyd olunmasıdır. Yəni, Azərbaycanı "qeyri-azad" hesab edən təşkilat bu dəfə də Ermənistanı "qismən azad" ölkə kimi təqdim edib.

Belə qərəzli, dəlilsiz, sübutsuz hesabatlar ictimaiyyət tərəfindən hiddətlə qarşılanaraq ölkəmizin uğurlarını gözügötürməyənlərin özlərinin saxta olduqlarını bildiriblər.

### Mehdi Balabəyov: "Human Rights Watch" təşkilatının Azərbaycanı hansısa dövlətlərlə üz-üzə qoymaq, düşmənçilik toxumu səpmək niyyəti ortadadır"

Sözügedən məsələyə münasibət bildirən YAP Şabran rayon təşkilatının sədri Mehdi Balabəyov açıqlamasında deyib ki, "Human Rights Watch" təşkilatı həmişə böhtan atmaqla, qara yaxmaqla dünya ictimaiyyətində Azərbaycan haqqında mənfi imic formalaşdırmağa çalışıb: "Amma bu, heç vaxt baş tutmayıb. Çünki həmin təşkilatın heyətində kifayət qədər erməni olduğu məlumdur. Onu da qeyd edim ki, sözügedən təşkilat erməni lobbisi tərəfindən maliyyələşdirilir. Tək "Human Rights Watch" deyil, həmçinin "Freedom Hous", "Amnesty International" kimi qərəzli təşkilatların verdiyi şərhlər artıq beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunmur və "Human Rights Watch"un təşkilatının Avropa və Orta Asiya üzrə direktor müavini Reyçel Denberin Azərbaycan haqqında qərəzli hesabatları bu təşkilatın riyakarlığına dəlalət edir. Çünki son illər dünyada baş verən xoşagəlməz hadisələr fonunda, gərginliyin, iqtisadi böhranın, dünyanı ağuşuna alan koronavirus pandemiyası zamanında Azərbaycanın ön sıradı olması, xüsusilə də, sabitliyin qorunub saxlanması, əhalinin rifah halının daha da yaxşılaşdırılması, insan hüquq və azadlıqlarının müdafiəsi, həmçinin azad sözün, müstəqil mətbuatın sərbəst fəaliyyəti istiqamətində qətiyyətli addımlar atması anti-Azərbaycan qüvvələri yenə də təlaşlandırıb. Onlar ölkəmiz haqqında beynəlxalq ictimaiyyətdə mənfi rəy formalaşdırmaq üçün yenə də yalan, böhtan və qarayaxma "maşınlarını" işə salıblar. Hesabatda, guya 195 ölkədə siyasi hüquqlar və vətəndaş azadlıqları qiymətləndirilib. Bu ölkələrin 87-si azad, 59-u qismən azad, 49-u azad olmayan ölkə hesab olunub. Azərbaycan yenə də "azad olmayanlar"ın, həm də son 10 ildə geriləyən ölkələrin sırasında olduğu bildirilir. Zaman-zaman bu təşkilatın Azərbaycan haqqında yalan və böhtanla dolu hesabatlar hazırlaması hər birimizə bəllidir. Əslində, "Human Rights Watch" xarici ölkənin qeyri-hökumət təşkilatıdır. Ona görə də bu təşkilat tərəfindən ölkəmiz haqqında yayılan hesabatın heç bir əsası yoxdur. İşğalçı Ermənistanı "qismən azad" ölkələr sırasına qatmaqla "Human Rights Watch", əslində, kimlərinsə sifarişini yerinə yetirdiyini təsdiqləyir. Ermənistan silahlı qüvvələrinin cəbhəboyu ərazilərdə təxribat törətməklə azyaşlı uşaqları, dinc əhalini qətlə yetirməsinə münasibət bildirməyən bu oyuncaq təşkilat, guya Azərbaycanda vətəndaşların hüquqlarının qorunması ilə maraqlanır. Əslində, muzdla fəaliyyət göstərən bu təşkilatın əsas məqsəd Azərbaycanı demokratiya yolundan kənarda qoymaq, bütün vasitələrlə inkişafa mane olmaq və digər dövlətlərin təsiri altına salmaqdır. Mənasız, dəlilsiz, əssasız və özləri yazıb, özləri də eşitdikləri hesabat nə xalqımız, nə də beynəlxalq aləmdə qəbul olunur və bundan sonra da qəbul olunmayacaq".




### Hafiz Hacıyev: "Bu qurum bilavasitə erməni lobbisi və himayədarlarının vassalı olaraq fəaliyyət göstərir"

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev "Human Rights Watch"un təşkilatının Avropa və Orta Asiya üzrə direktor müavini Reyçel Denberin öz rəflərində toz basmış anti-Azərbaycan xarakterli sənədini yenidən ictimailəşdirməklə, köhnə ampluasından çıxış edərək ölkəmizə qarşı hazırlanmış qərəzli kampaniyanın flaqmanı rolunda özünü bir daha təsdiq etdiyini bildirib: "Dəlil yox, sübut yox, "Human Rights Watch" muzdlu təşkilat nə vaxta kimi Azərbaycanla bağlı qərəz nümayiş etdirəcək? Əslində, burada heç bir yenilik yoxdur və. Əslində, bu təşkilatın qərəzli hesabatlar yaymaqda əsl məqsədi Azərbaycana qarşı təzyiqləri artırmaq, Ermənistana himayədarlıq etmək və Azərbaycan ərazilərinin işğal müddətini uzatmaqdır. Söz yox ki, bu kimi qərəzli hesabatlar müəyyən qaranlıq dairələrdən, həmçinin erməni lobbisi tərəfindən verilən sifarişdir.



Əgər "Human Rights Watch" təşkilatının əsas məqsədi insan hüquqlarını qorumaq olsaydı, bu qurum Azərbaycan ərazilərinin uzun müddət ərzində işğalda saxlanılmasına son qoyulması və yüz minlərlə insanın hüquqlarının bərpası istiqamətində addımlar atardı. Bu qurum nədənsə, bu günə qədər Ermənistanda kobudcasına, qətliamlarla nəticələnən pozuntuları, insan hüquq və azadlıqlarının pozulmasını, iqtisadi böhranın getdikcə güclənməsini bir dəfə də olsun dilə gətirməyib. Nəyə görə? Məsələ bəllidir - bu qurum bilavasitə erməni lobbisi və himayədarlarının vassalı olaraq fəaliyyət göstərir. Digər tərəfdən hadisələrin təhlili həm də onu göstərir ki, beynəlxalq aləmdə aparılan anti-Azərbaycan kampaniyası sistemli xarakter daşıyır, bir mərkəzdən idarə edilir, "Human Rights Watch" təşkilatının hesabatı da bu kampaniyanın tərkib hissəsi kimi nəzərdə tutulub və bu kampaniya parlament seçkiləri ərəfəsində beynəlxalq aləmdə Azərbaycanın mənfi imicinin formalaşdırılması üçün əsas vasitələrdən biri kimi istifadə edilməkdədir. Bu zaman belə bir sual yaranır ki, bütün bəşəri qanunlara zidd olan, eyni zamanda insanlığın, mənəvi dəyərlərin məhv olunmasına yönəlmiş layihələr icra edən bir təşkilatın ümumiyyətlə insan hüquqlarından danışmağa hansı mənəvi haqqı ola bilər?! İşğalçı Ermənistanın Azərbaycan xalqına qarşı törətdiyi soyqırımları bir kənara qoyub, sərsəm hesabatlar, bəyanatlar yayan bu təşkilat barədə necə ciddi düşünmək olar?! Hesab edirəm ki, bu kimi qərəzli kampaniyalar heç vaxt onların istədikləri nəticələri verməyəcək və böhtançı fəaliyyətləri ifşa ediləcək".

Bir sözlə, bu tip təşkilatlar həmişə təlimatla işləyib, onların qarşısında qoyulmuş vəzifələri yerinə yetirməyə xidmət edirlər. Belə təşkilatlar nəhayət anlamalıdırlar ki, onların vaxtaşırı nümayiş etdirdikləri qərəzli mövqelər bumeranqa çevrilərək yavaş-yavaş özlərinə təhlükə yaradacaq. Azərbaycan dövlətinin günü-gündən inkişaf etməsini, əhalisinin rifahının yüksəlməsini, müstəqil siyasət yürüdülməsini bir çox xarici qurumlar, eləcə də onların təsirində olan daxili destruktiv qüvvələr həzm edə bilmir, həqiqətə uyğun olmayan məlumatlar yaymaqla beynəlxalq ictimaiyyətdə qeyri-obyektiv fikir formalaşdırmağa çalışırlar. Çox təəssüf ki, "demokratiya carçılarının" əsl siması budur.

***Rəfiqə HÜSEYNOVA***

---

# Tofiq Yaqublu məsələsində məqsəd umanlar kimlərdir?

### Adlar daha əvvəldən bəlli olsa da, növbəti faktlar həmin gerçəkliyi təsdiq edir

Daha əvvəldən də məlum idi ki, "Milli Şura"nın koordinasiya mərkəzinin üzvü Tofiq Yaqublunun bəlli cinayəti üzərindən xal toplamağa çalışanların başında ilk növbədə AXCP sədri Əli Kərimli, onun ardınca isə Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Qənimət Zahid, Cəmil Həsənli və s. şəxslər dayanıb. Əslində, bu oyunbazlıq reallığı radikal düşərgədə ilk dəfədir ki, oynanılmır. Biz elə də uzağa getməyərək, "Milli Şura"nın digər üzvü Oqtay Gülalıyev olayını xatırlaya bilərik. Sadəcə, ehtiyatsızlığı üzündən ağır xəsarət alaraq xəstəxanaya düşən O.Gülalıyevin guya hakimiyyət tərəfindən "suiqəsdə" məruz qaldığını iddia edənlər bu ssenarilərində də yanıldılar. Çünki sonradan müxalifətçinin müalicə xərclərini və sağlamlığına qovuşmasını Heydər Əliyev Fondu həyata keçirdi. İctimai rəydə çaşqınlıq yaratmağa cəhd edən AXCP sədri Əli Kərimli və qeyd edilən ətrafı isə ifşa olundular. Halbuki, onlar 11 min manatlıq "marafon" təşkil edib, bu oyun üzərindən "məzlumluq" sərgiləyirdilər. Nəticədə isə ifşa olundular.

### Adil Qeybulla həqiqəti üzə çıxardı

İndi də Tofiq Yaqublunun üzərində eyni oyunbazlığı sərgiləyənlər, əslində onun keçirdiyi aclıq aksiyasının faciəvi bitməsinin tərəfdarları olduqlarını açıq-aşkar büruzə verirlər. Buyurun, bu gün artıq həmin şəxslər ifşa olunmaqdadırlar. Tanınmış həkim, bir müddət əvvəl Tofiq Yaqublunu şəxsən müayinədən keçirmiş Adil Qeybulla Əli Kərimlinin adını çəkməsə də, onun barmağı ilə idarə olunan Gültəkin Hacıbəylinin, Sevinc Osmanqızının adını çəkir və onları Oqtay Gülalıyev məsələsindəki maraqlarını ifşa edir. Nəticə etibarı ilə ictimaiyyət də görür ki, Əli Kərimli və onun siyasi polyaçılər trupası açıq-aşkar Tofiq Yaqublunun həyatının təhlükədə qalmasını arzu edirlər. Daha dəqiq desək, hər an qurbanlıq axtarır, necə ki bu gün Tofiq Yaqublunu sözün həqiqi mənasında öldürmək niyyətindədirlər.

Yeri gəlmişkən, bir vaxtlar qolqola girdiyi və icazəsiz aksiyalarda iştirak etdiyi Tofiq Yaqublunun məhkəməsinə qatılmayan Əli Kərimli heç bunun da əsl səbəblərini nəyə görəsə açıqlamamışdı...

Sərdar Cəlaloğlu Əli Kərimlinin və Arif Hacılının Qubad İbadoğlu-



nun təşəbbüsünə nəyə görə imza atmadıqlarının əsl tərəfini açıqladı

Bu arada, ADP sədri Sərdar Cəlaloğlunun da sözügedən məsələdəki fikirləri maraqdoğurucudur. O, deyib ki, Tofiq Yaqublunun azadlığa buraxılması ilə bağlı Prezidentə müraciət ünvanlanması üçün Qubad İbadoğlu təşəbbüs irəli sürsə də, AXCP və Müsavat həmin sənədi imzalamaqdan imtina etdilər.

Beləliklə də, daha bir fakt ortaya çıxdı ki, Tofiq Yaqublunun hətta həyatının itirilməsində maraqlı olan tərəflər yalnız Əli Kərimli və yuxarıda adları çəkilənlər deyil, eyni zamanda, Müsavat başqanı Arif Hacılıdır.

Eləcə də, "GünAZ" TV-nin rəhbəri Əhməd Obalı da Tofiq Yaqublu məsələsinə toxunub. O isə öz çıxışında üzdə Tofiq Yaqublunu müdafiə edənlərin, əslində, onun ölümünü, fiziki zərər görməsini istədiklərini deyib.

Beləliklə də, aydın olur ki, Əli Kərimlinin "Yaqublu oyunu" adlı uğursuz sirk tamaşası ifşa olunur və əsl məqsədin, niyyətin Tofiq Yaqublu üzərindən siyasi və maddi mənfəət qazanmaq olması üzə çıxır. Əvvəllər olduğu kimi, bu dəfə də eyni vəziyyət, eyni kirli maraqlar ortadadır.

***Rövşən NURƏDDİNOĞLU***



# Əli İnsanovun "etimad hökuməti", yaxud, müxalifət kimdən və niyə qorxur?

***Bu günlərdə Əli İnsanov BBC News Azərbaycanca-nın "Sual vaxtı" proqramının xanım aparıcısının qonağı olarkən hamımız təbii narahatlıq keçirdik. Çünki yaxın tariximizdə ANS-in xanım müxbirinə qarşı-"konkret rədd ol!" qabalığını göstərməsini və bununla kifayətlənməyib onu itələməyə çalışmasını hələ unutmamışıq.***

**" Xoşbəxtlikdən" qorxduğumuz olmadı**

Səadət xanımın sual verməsinə dəfələrlə kobudluqla mane olmasını, sözünü ağzında qoymasını və "maraqlı sual" tələb etməsini nəzərə almasaq elə bir ciddi narahatlıq doğuran hadisə baş vermədi. HƏP-in sədri yenə də "etimad hökuməti" xəyallarından danışdı, bu qurumda YAP-la yanaşı 4 müxalifət partiyasının iştirakını zəruri saydığını bildirdi və israrla həmin partiyaların adlarını çəkməkdən imtina etdi. Guya siyasətdən azçox anlayışı olanlar bilmirlər ki, müxalifət deyiləndə Musavat partiyasında keçirilən "dəyirmi masa"nın 3 iştirakçısı- ev yiyəsi, AXCP, HƏP nəzərdə tutulur və bu partiyaların gözünə Q.İbadoğlunun rəhbərlik etdiyi hərakat əlavə olunur. Yerdə qalanlarını normal müxalifətçilik etdiklərinə görə rişxəndlə "dialoq müxalifəti" adlandırır və onları hakimiyyətə satılmış hesab edirlər. Maraqlıdır ki, HƏP sədrinin sözlərinə görə bu 4 partiya arasında 2 aydan artıqdır danışıqlar gedir və nəticə heç də ürəkaçan deyil: "liderlərin bir qismi bəyənib və bizimlə olmaq istəyir, bir qismi düşünürlər, fikirləşirlər, bir qismi də bir az başqa formada təklif eləyirlər". Bu yerdə lap Ə.İnsanov sayağı:-"Budurmu, sizin apardığınız danışıqlar?!", "Budurmu, sizin "etimad hökuməti"?!"-demək istəyirsən. Ən yaxın müttəfiqlərinlə 2 aydan artıq danışıq aparasan, ""etimad hökuməti"nin proqramları hazırdır, bir "hə"-verin, başlayaq"-deyəsən və sonra məlum ola ki, 3 nəfərdən biri "fikirləşir", o biri də "bir az başqa formada təklif eləyir". Bəlkə müəlliflərini gizlətdiyiniz o "proqramları" dərc edəsiniz, biz də tanış olaq. Bilirəm ki, etməyəcəksiniz. Olmayan şeyi necə dərc etmək olar? HƏP sədri deyir: "etimad hökuməti seçkilərə qədər islahatlar aparıb, ölkədə vəziyyəti düzəldəcək və biz əvvəlcə prezident, sonra parlament seçkiləri keçirəcəyik". Tutaq ki, Ə.İnsanov siyasətdə təzə olduğundan bu məsələləri dərindən bilmir. Axı, HƏP Ali Məclisinin sədri Z.Məmmədli bilir. Axı, o, bir neçə partiyadan (AXC, Musavat, Yurd və s.) ibarət olan hökumət üzvlərinin seçkilər ərəfəsində bir-birini necə qırdığını, nüfuzdan salmağa çalışdığını, namizədlərini reklam etmələrini öz "dərisində" hiss eləyib. Axı, cəmi bir il hakimiyyətdə olan həmin o "islahatçı koalisiyanın" fəaliyyətinin fəlakətli nəticələrini hələ də aradan qaldırıb, qurtara bilməmişik. Bəs, niyə sədrinə başlarına gələnləri danışmaq istəmir? Çünki, məqsəd nə islahatdır, nə xalqın "ağ günə" çıxarılması. Məqsəd hakimiyyəti dəyişməkdir və bu "sadəlövh təklif" də o məqsədlə verilib. Ancaq bir şey nəzərə alınmayıb: hakimiyyət bu təklifi qəbul edəcək dərəcədə sadəlövh deyil. Ə.İnsanov müsahibədə "yeganə dinc yol" saydığı "etimad hökuməti"nin yaradılmayacağı təqdirdə digər partiyalarla birlikdə hərəkat formalaşdıracaqlarını, zorakılığa yol vermədən (oğul istəyirəm anlasın: "dinc" mübarizənin "zorakılığa yol vermədən" aparılan mübarizədən fərqi nədir?) mübarizə aparacaqlarını bəyan edir.

Və keçir nəzərdə tutduğu "prezident seçkilərinə". Ancaq lap əvvəldən müxalifət liderlərinin "qorxulu röyası" olan, ürəklərində saxlayıb dilə gətirmədikləri məsələni səsləndirir və Birinci vitse-prezidentə xahişlə müraciət edir:-"Mehriban xanım, prezident olmaq iddiasından əl çəkin!".

Və Səadət xanımın sual-etirazını səsləndirməsinə imkan verməyib keçir əsaslandırmağa: "Bizi qarşıda çox ağır Qarabağ savaşı gözləyir. Qarabağda savaş meydanı nəcib xanımlar üçün gözəllik salonu deyil". Səadət xanım yenə nəsə deməyə çalışır və yenə sözü ağzında qalır: "Ölkəyə Ali Baş komandan olmaq üçün cəsarətli, mətin ər(xüsusi vurğu ilə deyib, sanki özünü nişan verir) lazımdır, kişi lazımdır. Bu qadın işi deyil.". Xanımlarımıza saygısızlıqla dolu bu bəyanat heç bir ciddi etiraza layiq olmadığından üstündən keçirəm və bir məsələni ona xatırlatmaq istəyirəm.

Müxalifətçilərdən fərqli olaraq Mehriban xanım heç vaxt prezidentlik iddiasının olması barədə bəyanat verməyib. Çünki növbəti prezident seçkilərinə hələ 5 il var və "çırmanırıq, keçməyə çay gəlməmiş"- devizi ilə hərəkət edən "siyasət maralları"ndan fərqli olaraq ciddi siyasətçilər hər iş barədə vaxtı gələndə danışırlar. Ancaq üfüqdə prezident seçkiləri görünməsə də qorxmağınıza, ehtiyatlanmağınıza görə sizi qınamıram. Növbəti prezident seçkilərində İ.Əliyevin sədri olduğu Yeni Azərbaycan Partiyası tərəfindən namizədliyinin irəli sürüləcəyi təqdirdə Mehriban Əliyeva sizin ağlınıza gəlməyəcək səviyyədə uğurlu seçkiqabağı kampaniya aparacaq və sizlərə siyasi həyatınızın ən böyük məğlubiyyətini yaşadacaq. Çünki hətta jurnalistlər qarşısında diktator hikkəsini gizlədə bilməyən sizlərdən fərqli olaraq o ağıllı adamlara dəyər verən, komanda yaratmağı bacaran və komanda ilə işləməyi bilən demokratik liderdir. Bu gün Birinci vitse-prezidentin yanında çalışan yaxşı təhsil almış, yüksək mədəniyyətli şəxsiyyətlərə baxın, onları ətrafınızda-"yel əsib, qoz tökülüb" ümidilə toplaşanlarla müqayisə edin. Necə deyərlər: " Kor kor,gör gör!".

Nəhayət, vaxtınız olsa bir dəfə deputat Razi Nurullayevdən nümunə götürüb güzgü qarşısıda çıxış edin. Görün güzgüdən sizə baxan, üz-gözündən insanlığa qəzəb, nifrət tökülən, kobud, yekəxana adamın qüsurlu diksiya ilə söylədikləri ürəyinizə yatacaqmı? Sizdən çox da fərqlənməyən digər müxalifətçilərə baxın və düşünməyə çalışın: hər şey sizin qorxduğunuz kimi olsa və növbəti prezident seçkilərində hakim komandanın namizədi olaraq Mehriban xanım iştirak etsə qarşınızda böyük idarəçilik təcrübəsi keçmiş, müasir siyasi texnologiyalardan ustalıqla yararlanan, bütün sahələrdə cəsarətli islahatlar aparmaq (Prezident İ.Əliyev bu islahatlar üçün hazırlıq işlərini görüb və zəruri bazanı yaratmaqda davam edir) qabiliyyətinə malik olan bir xanım dövlət xadimi olacaq.

Və heç şübhəniz olmasın ki, Azərbaycanın seçilmiş ilk xanım prezidenti kimi, Ali Baş Komandan kimi sizin dediyiniz "cəsarətli, mətin ər və kişi"lərdən heç nədə geri qalmayacaq, müdrikliyi, qoxmazlığı və qətiyyəti ilə həm erməni düşmənlərimizi, həm də onlara əlaltılıq edən ölkə daxilindəki bədxahlarımızı daim qorxu altında saxlayacaqdır.

***Abutalıb Səmədov,***
***Azərbaycan Naminə Alyans Partiyasının sədri***

---

# "Hər kəs "Soros" fondundan nəinki bezib, hətta nifrət edir"

***Son vaxtlar Əli Kərimli və Sevinc Osmanqızı fəaliyyətlərini "Soros" fondunun tələblərinə uyğun qurmaqla Azərbaycanın dövlətçilik maraqlarına zərbə vurmağa çalışırlar. Bununla Ə.Kərimli və S.Osmanqızı əsas maraqlarının maddi gəlir əldə etmək olduğunu nümayiş etdirirlər. Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli "Səs" qəzetinə açıqlamasında adı çəkilən şəxslərin Azərbaycanın dövlətçilik maraqlarına zərbə vurmağa çalışmalarının onda təəssüf doğurduğunu bildirdi: "Çünki bütün dünya və beynəlxalq ictimaiyyətin özü də çox yaxşı ki, Ermənistanın baş naziri "Soros" fondunun adamıdır. Yəni Paşinyançox ciddi Ermənistan cəmyyətinin içində də, çölündə də ittiham olunur.***



Belə olduğu halda gözdən düşmüş, rəngli inqilabların müəllifi yalnız özlərinə tabe olmayan dövlətləri devirmək məqsədi qoyan "Soros" fondunun adamı olmaq və yaxud da onun marağına işləmək heç kimə şərəf gətirmir və birmənalı şəkildə cəmiyyət qəbul etmir. 10 illər bundan əvvəl "Soros" fondunun Ukraynada, Rusiyada və digər ölkələrdə də fəaliyyətləri var idi, amma hər kəs "Soros" fondunun adamlarını öz ölkəsindən qovur. Çünki "Soros" maraqları birmənalı şəkildə dövlətin milli maraqlarına zidd təşkil edir, ancaq imperialist dövlətləri özlərinin əlində maryanetka halına salmaq məqsədi düşür. Ona görə də, hər kəs "Soros" fondundan nəinki bezib, hətta nifrət edir. Belə olan təqdirdə, gərək Əli Kərimli və Sevinc Osmanqızı hər vəchlə "Soros" fondunun keyfiyyətlərindən kənara qaçmağa çalışardılar. Yəni adlarının onunla bağlanmağından qaçardılar. Amma təəssüflər olsun ki, adları çəkilən bu şəxslər obyektivliklərini itiriblər. İndi Azərbaycanda çox böyük bir hərəkət başlayıb, sanki dövlətmizin ikinci quruculuq halı gəlib, müxalifətdə bu işə cəlb olunur, mən özümdə iqtidara müraciət etmişəm ki, müxalifətə əl uzatsın".

T.Kərimli bildirdi ki, onlar yaxşı başa düşürlər ki, Azərbaycan çoxlu rəngli inqilablar dövrünü keçib və "Soros" fondunun dəfələrlə cəhdlər olmağına baxmayaraq, Azərbaycanda niyyətləri baş tutmayıb və bundan sonra da baş tutan deyil: "Belə olan halda nəyə görə bu şəxslər uğurlu gələcəyə malik olmayan bir proqramda iştirak edirlər? Ona görə də, bunların niyyətləri və nail olmaqları ancaq ondan ibarətdir ki, özlərini göstərsinlər, məhz həqiqətən də onlar Azərbaycan hakimiyyətinə qarşı mübarizə aparırlar və bununla da nə isə ala bilsinlər, nə isə özlərinin güzəranını yaxşılaşdıra bilsinlər. "Soros" fondunun əlində olan beynəlxalq imkandan yararlansınlar və özlərini məşhurlaşdırsınlar və özlərini müxalifət imicini qoruyub saxlasınlar. Çünki onlar çox yaxşı bilirlər ki, "Soros" fondunun niyyətlərini həyata keçirmək mümkün deyil. Ancaq istəkləri baş tutmayacaq".

***Gülyana***

# Qarabağın azad olunmasında beynəlxalq güclərin rolu nədən ibarət ola bilər?

**Azərbaycanın həm siyasi, həm iqtisadi, həm hərbi konteksdə üstünlüyü ələ alması ermənipəsərt dairələrin ciddi narahatlığına səbəb olub**

Qarabağ münaqişəsi ətrafında durğunluq dövrü başa çatıb. Proses aktiv fazaya keçməkdədir. Tovuzda baş verən erməni təxribatına ordumuzun layiqli cavab verərək düşməni ağır vəziyyətə salmasından sonra ermənilərin beynəlxalq havadarları həyəcana gəldilər. ABŞ, Avropa və Rusiyadakı bəzi ermənipərəst dairələr ciddi təşviş keçirdilər. Çünki artıq Azərbaycanın səbri qalmadığını əyani surətdə gördülər.

### Amerikanın münaqişədə maraqları və mövqeyi

Rusiya ətrafında qarışıqlıq və qarşıdurma yaratmaq, həmçinin Ermənistanı Rusiyanın təsirindən tam qoparmaq, əlbəttə, ABŞ-ın da maraqlarına uyğundur. Belə ki, Vaşinqtonda yaxşı bilirdilər ki, Ermənistan hakimiyyəti hər nə qədər Amerikaya bağlı olsa da, Rusiyadan da müəyyən asılılıqları var. Eləcə də Rusiyanın Ermənistandan asılılığı var. Çünki Rusiyanın NATO-ya qarşı cənubdan yeganə müdafiə bazası Ermənistan ərazisində yerləşir.

Buna görə də, Ağ Evdə bilirdilər ki, ermənilərin Azərbaycana hücum təşkil etməsi- özü də Qarabağda yox, 2 ölkə sərhəddində- Ermənistanın Rusiyadan tam qopmasına gətirib çıxara bilər. Belə ki, Ermənistan iddia edəcək ki, Azərbaycan ona hücum edir və kömək üçün KTMT-yə müraciət edəcək, KTMT isə əvvəllər də bəyan etdiyi kimi, bu məsələyə qarışmayacaq (çünki prezidentimizin dediyi kimi Ermənistan xaric bu təşkilatdakı bütün üzvlər bizim dostumuzdur), o cümlədən Rusiya da Azərbaycanın rəsmi tanıdığı ərazilərində anti-terror əmiyyatı aparmasına qarşımayacaq- bu halda Amerika agenti Paşinyan xalqa müraciət edəcək ki, bəs Rusiya və KTMT bizə kömək etmədi, gəlin onun bazasını çıxaraq, Amerika ilə müttəfiq olaq.

Beləliklə, Amerika Rusiyanın cənub-qərb istiqamətində əsas müdafiə sistemindən və NATO-ya qarşı bazasından məhrum etmək istəyir. Moskvada bütün bunları yaxşı başa düşürlər və ona görə də Ermənistanın çağırışına cavab verilmədi, KTMT-nin iclası təşkil edilmədi. Moskvadan Bakıya döyüşlərin dayandırılması ilə bağlı heç bir tələb və ya xahiş edilmədi. Baxnmayaraq ki, Qərb dairələrindən döyüşlərin dayandırılması tələb edildi.

Lakin Azərbaycan hakimiyyətinin son 25 ildə yeritdiyi xarici siyasətin nəticələri özünü göstərməyə başlamışdı. Belə ki, artıq həm Amerika, həm Rusiya, həm də Avropada münaqişəyə baxış dəyişib və beynəlxalq təşkilatlarda Azərbaycanın haqlı mövqeyini də nəzərə alırlar. Üstəlik, bütün böyük dövlətlərlə ikitərəfli münasibətlərimiz yüzksək səviyyəyə çatıb və onlar bir növ bizim tərəfdaşımıza çevriliblər.

### Rusiya və digər region ölkələri münaqişəyə necə yanaşır?

Ermənistanı tam ələ keçirməklə Amerika onun ərazisindən həm də öz düşmənləri olan Türkiyə və İran ərazisinə birbaşa çıxış əldə etməyə cəhd edir. Bunu başa düşən Rusiya da Ermənistan kimi starteji coğrafi mövqeyə malik Ermənistanı 4 ölkəyə çıxışı olan plasdarm kimi nəzərdən keçirir və onu xüsusən də NATO-ya qarşı cənub müdafiə istehkamı olaraq görür.

Buna baxmayaraq, Moskvada başa düşürlər ki, Azərbaycan Rusiyanın fövqəldövlət maraqlarının qorunmasında Ermənistanın sıfır səviyyəsində olan rolunun əvəzində daha geniş imkanlara malikdir. Həm iqtisadi, həm coğrafi, həm siyasi cəhətdən Azərbaycan Rusiyaya Ermənistandan daha sərfəli müttəfiq ola bilər.

Əlbəttə, bu məsələləri Tehran, Tbilisi və Ankarada da yaxşı başa düşürlər. Biz qonşu dövlətlərə qarşı belə oyunlarda iştirak etməyəcəyimizi ən yüsək səviyyədə bəyan etmişik və bunu əyani surətdə göstərmişik. Ona görə də, İranla münasibətlərimiz də yüksək səviyyədədir. Tehran dəfələrlə Qarabağı Azərbaycan əraizisi, müsəlmanların tarixi torpağı kimi qəbul etdiyini rəsmi bəyan edib və bu problemin həllində rəsmi Bakının mövqeyini dəstəkləyir.

Gürcüstanın da iqtisadi cəhətdən bizdən asılı olduğunu nəzərə alsaq, kritik situasiyada Tbilisinin seçim qarşısında qalarsa tam bizim tərəfimizi tutacağına şübhə yoxdur.

Türkiyə ilə dost və müttəfiq ölkə olduğumuzu geniş şərh etməyə düşünürük ki ehtiyac yoxdur. Sonuncu qarşıdurmada Ankaranın qəti və tələbkar mövqeyi Ermənistana daha bir beynəlxalq təzyiq mərkəzi rolunu oynadı. Birgə hərbi təlimlərdə İrəvana lazımi mesajlar verildi.

Beləliklə, aydın olur ki, Ermənistan nəinki regonda, eləcə də dünyada təklənib və onun ətrafında həlqə getdikcə daralır.v Ona görə də, müxtəlif təxribatlar törətməklə xristian dünyasnın diqqətini çəkməyə çalışır və belə təəssürat yaratmağa çalışır ki, guya Azərbaycan üçün məqsəd Qarabağı azad etmək deyil, Ermənistanı işğal etmək, erməniləri qırmaqdır. Qarabağdan uzaqda- 2 ölkə sərhədində - Tovuz istiqamətində törədilən təxribatın əsas məqədi də bu idi.




### Regionda siyasi güc balansı və nüfuz dairəsi

Ermənistan rəhbəri Paşinyanın Amerika agenti olması və onu hakimiyyətə Amerikanın dövlət çevrilişi təşkil edərək gətirməsi hamıya məlumdur. O da hakimiyyət başına gələn kimi bütün dövlət orqanlarında rusiyayönümlü nazirləri, məmurları çıxarıb yerinə amerikanpərəstləri qoydu və beləliklə, bəzi sahələrdə Rusiyadan asılılıqları qalsa da, Ermənistan faktiki olaraq Amerika müstəmləkələrindən birinə çevrildi.

Bundan qabaq isə Amerika Gürcüstanda hakimiyyət dəyişikliyi edərək onu Rusiyanın təsirindən çıxararaq öz müttəfiqinə çevirmişdi.

Bunun əvəzində Rusiya da Amerikanın bir müttəfiqini- Türkiyəni onun təsirindən çıxmasına yardım etdi və özü ilə müttəfiqə çevirdi. İranla Rusiyanın da müttəfiqliyi aydın məsələdir.

Beləliklə, regionda 2 dövlət (Gürcüstan və Ermənistan) Amerika, 2 dövlət (İran və Türkiyə) isə Rusiya yönümlüdür. Müstəqil qalan və bu balansı ciddi şəkildə dəyişə biləcək yeganə dövlət Azərbaycandır. Azərbaycan bu faktdan istifadə edərək 2 fövqəldövlət arasında elə balanslı siyasət aparır ki, bunun nəticələri bizə zərəli olmasın, əksinə fayda versin və son nəticədə onların da neytrallaşması ilə Qarabağı geri ala bilək.

Bizim həddən artıq strateji, iqtisadi və ticari qovşaq mövqeyimiz hər 2 fövqəldövlətin marağındadır. Regionda Azərbaycan kimi müttəfiqi olsa, onun əli güclənir. Azərbaycan Rusiya və İran arasında birbaşa keçid üçün yeganə ölkədir. Üstəlik, Azərbaycan bütün 5 region dövləti ilə birbaşa sərhəddi olan yeganə ölkədir. Yaxın Şərqə və Rusiyaya birbaşa qapıdır.

İqtisadi məsələlərdə də biz Ermənistandan dəfələrlə üstün mövqedəyik. Bu regiondakı bütün beynəlxaql və regional əhəmiyyətli nəqliyyat və enerji layihələri Azərbaycandan keçir. Bunlar ciddi faktorlardır- bunu qlobal siyasi mərkəzlərdə yaxşı anlayırlar.

### Qarabağın azad edilməsində əlimizdəki kartlar

Etiraf etməliyik ki, indiki beynəlxalq konyukturda və faktik situasiyada Qarabağın fövqəldövlətlərin marağı təmin olunmadan geri qaytarılması çətindir. Ya ikisinin də ya da heç olmasa birinin maraqları təmin olunduğu halda buna ümid etmək olar.

Bizim əlimizdə güclü bir kart var- biz şərt qoya bilərik ki, kim Qarabağın qaytarılmasında kömək eləsə onunla həm siyasi, həm iqtisadi cəhətdən daha yaxın müttəfiq olacağıq. Amerika razı olsa Amerikaya, Rusiya razı olsa Rusiyaya bir hərbi baza üçün yer verməklə belə Qarabağı almaq olarsa, buna gedilməlidir.

Rusiyanın Ermənistandakı NATO-ya qarşı bazasına görə Yerevandan müəyyən asılılığı var, biz o bazaya yer versək, vəziyyət tamam dəyişər. İşğal olunmuş torpaqlarımızın qaytarılmasına Rusiya kömək etsə, Avrasiya İqtisadi İttifaqına və KTMT-yə də daxil olmaq olar.

Amerika da İranın və Rusiyanın arasında hərbi bazaya və müttəfiq ölkəyə malik olmağı çox arzu edərdi. Hətta Azərbaycanı NATO-da və özünün hegemonluq etdiyi bəzi beynəlxalq təşkilatlarda görməsini daha çox istərdi. Rusiya ətrafında öz müttəfiqlərini yaratmaq Amerikanın ən böyük arzusudur. Buna nail olmaq istəyirsə, ABŞ Qarabağın qaytarılmasında bizə kömək etməlidir.

Bununla yanaşı, biz 3-cü və 4-cü fövqəldövlətlər olan Çinlə və Hindistanla çox yaxın münasibətlər və daha güclü əməkdaşlıq qurmalıyıq. Yaxın müddətdə dünyada əsas söz sahiblərinin bu ölkələr olacağını dünyanın ən nüfuzlu mütəxəssisləri etiraf edirlər.

Dövlət rəhbərlərimiz əlbəttə bunları bilir və bütün imkanlardan istifadə edir. Ona görə də neçə vaxtdır səbrlə iş aparır və uyğun vaxtı gözləyir. Mənə elə gəlir ki artıq bu vaxt gəlib çatmışdır. Yaxın vaxtda bu problemin həllində əhəmiyyətli dəyişiklik olacağına ümid edirik.

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

17 sentyabr

## Xəbərdarlıq: Bu üsulla arıqlamaq təhlükəlidir!



Dietoloq Marqarita Korolyova kofe yardımı ilə arıqlamağın təhlükəli olduğunu açıqlayıb. Həkimin sözlərinə görə, kofein maddələr mübadiləsini tezləşdirir. Bu isə çox zaman ürək çatışmazlığı ilə nəticələnir. "Biz kofeini yağ yandırıcı kimi nəzərdə tutaraq gün ərzində 8 fincan kofe içsək ürəyə nə olar? Əlbəttə, ürəkdə problem yaranar" - deyə dietoloq bildirib.

O, qeyd edib ki, bu içki təzyiq və aritmiyası olan insanlar üçün təhlükəlidir. Dietoloq həmçinin bildirib ki, az miqdarda kofe kalorili əlavələr edilmədiyi təqdirdə, arıqlamağa kömək edə bilər./Publika.az



## "Qalatasaray" Bakıyada!

*UEFA Avropa Liqasının II təsnifat mərhələsində Bakının "Neftçi" klubu ilə qarşılaşacaq Türkiyənin "Qalatasaray" komandası sentyabrın 16-da Bakıya gəlib. AZƏRTAC xəbər verir ki, İstanbul təmsilçisini gətirən təyyarə Heydər Əliyev Beynəlxalq Aeroportuna eniş edib. Qeyd edək ki, sentyabrın 17-də Bakı Olimpiya Stadionunda keçiriləcək "Neftçi"-"Qalatasaray" matçı saat 20:00-da başlayacaq.*



## Fatih Terim: "Neftçi"yə yuxarıdan aşağı baxmaq olmaz

**Futbol üzrə UEFA Avropa Liqasının 2-ci təsnifat mərhələsində "Neftçi" ilə qarşılaşacaq "Qalatasaray"ın baş məşqçisi Fatih Terim oyun haqda fikirlərini bildirib. Qol.az xəbər verir ki, Türkiyə klubunun çalışdırıcısı yerli mətbuata qısa açıqlamasında "ağ-qaralar"la oyuna çox ciddi yanaşdıqlarını deyib:**

"Neftçi"yə yuxarıdan aşağı baxmaq olmaz. Bakıya qələbə dalınca gedirik. Bu oyunun sığortası yoxdur. Səhvləri bağışlanmayacaq bir 90 dəqiqə oynayacağıq. Rəqib mərhələnin bir oyundan ibarət olmasını fürsət kimi görəcək. Səhv istəmirəm".

Xatırladaq ki, sentyabrın 17-də Bakı Olimpiya Stadionunda keçiriləcək "Neftçi" - "Qalatasaray" matçı saat 20:00-da start götürəcək. İstanbul təmsilçisi Bakıya bu gün gələcək.

## Avtomobillərdən oğurluq edən keçmiş məhkum tutuldu



**Oğurluqda şübhəli bilinən Bakı şəhər sakini A.Nemətov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Yasamal RPİ 26-cı PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avqustun 17-dən sentyabrın 14-dək olan müddətdə rayon ərazisində 2 avtomobildən ümumilikdə 860 manat pul, 3 ədəd mobil telefon və tibbi ləvazimatlar, habelə M.İsgəndərovun velosipedini oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş A.Nemətov saxlanılıb.**

## Övladlığa götürülən uşaqlara görə müavinat necə veriləcək?



*"Sosial müavinətlər haqqında" Qanuna təklif olunan dəyişikliklər övladlığa götürülməsi çətin hesab edilən valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş iki kateqoriya üzrə uşaqların övladlığa götürülməsinin stimullaşdırılması məqsədi daşıyır.*

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən məlumat verilib. Bildirilib ki, bunlar 3-18 yaş arasında və 0-18 yaş arasında olan sağlamlıq imkanları məhdud uşaqlardır. Həm 3-18 yaş arasında olan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi ilə bağlı, həm də, sağlamlıq imkanları məhdud uşaqların övladlığa götürülməsi ilə bağlı müavinətlərin təyin olunması nəzərdə tutulub.

Müavinətlərin 2021-ci ilin yanvarın 1-dən sonra övladlığa götürülən uşaqlara şamil edilməsi nəzərdə tutulub. Vurğulanıb ki, müavinətin təyin olunması üçün əsas şərt övladlığa götürmə ilə bağlı məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsinin təqdim edilməsidir.

## Siyəzəndə avtomobil aşdı, sürücü öldü



Siyəzən rayonunun Alxanlı kəndi ərazisində yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, sentyabrın 15-də saat 13 radələrində Siyəzən rayonunun Alxanlı kəndi ərazisində Şabran rayon sakini Ramin Nəcəfov idarə etdiyi "Howo" markalı avtomobili aşırmış və aldığı xəsarətlərdən hadisə yerində ölüb.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600